DÜŞÜNƏN İNSAN - Mart 2013;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (077) 381 61 91; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# DÜŞÜNƏN İNSAN

## içindəkilər




| | |
|---|---|
| Elmi-texnoloji xəbərlər | 4 |
| İslam dünyasında keçən ay | 6 |
| Dua sıxıntı və zərərə yol açan hadisələrə qarşı sədd çəkir | 8 |
| Bir ayə,bir açıqlama | 13 |
| Din Allah üçün yaşamaqdır | 14 |
| Bəzi qərb filosoflarının qadın düşmənçiliyi | 19 |
| Ağıl doğru düşünməyə səbəb olur | 26 |
| Təbii təmizləyici: lotus bitkisi | 31 |
| Alovdakı dizayn | 32 |
| Canlı uçuş mexanızmi: iynəcələr | 40 |
| Axirət günündə hesaba çəkilmədən əvvəl nəfsi hesaba çəkməyin əhəmiyyəti | 42 |
| "Ara keçid fosil tapıldı" iddiası saxtakarlıqdır | 46 |
| Kenquru balalarına xüsusi qayğı | 53 |
| Fosillər təkamülü təkzib edir | 58 |
| Blez Paskal iman haqqında | 64 |


















Albert Eynşteyn:

"İnsanın həqiqi hədəfini din müəyyən edir. Ancaq hansı vasitələrə istinad edilməsinin vacibliyi məsələsində elmin də söyləyəcəyi şeylər var. Elm həqiqəti qüsursuz öyrənmək istəyənlər tərəfindən formalaşdırılıb müəyyən çərçivələrə salınır. Lakin yenə də bunun mənbəyində böyük ölçüdə din var. Mən dərin imana sahib olmayan hər hansı bir elm adamı təsəvvür edə bilmirəm".

(Albert Einstein, Science, Philosophy, And Religion: A Symposium,- 1941, part 3)



www.dovletebaglilig.com

"Biz öz növbəmizdə dünyada İslam həmrəyliliyinin gücləndirilməsi üçün səylərimizi göstəririk. Bəzi ölkələrdə islamofobiya meyillərinin gücləndirilməsi bizi çox narahat edir. Biz öz növbəmizdə İslamı sülh, qardaşlıq, mərhəmət dini kimi dünyaya daha da geniş şəkildə təqdim etməliyik".

*İlham Əliyev*





# Elmi-Texnoloji Xəbərlər

## DNT-NİN İÇİNDƏ MİLYONLARLA CD SAXLANACAQ

İngilis elm adamları rəqəmsal məlumatı DNT-nin içində saxlamağın mümkün olduğunu açıqlayıblar.

İngilis elm adamları milyonlarla CD-lik məlumatı əsrlərlə təhlükəsiz saxlamaq üçün DNT-nin içinə yerləşdirəcəklərini deyiblər. Elm adamları bunu təsdiqləmək üçün bir sınaq şüşəsinin içində çətinliklə görünən DNT hissəsinə 154 Şekspir sonatası, bir fotoşəkil, bir elmi tezis və Martin Lüter Kinqin məşhur "Bir xəyalım var" adlı nitqindən 26 saniyəlik səsyazısını yerləşdirib.

Bu əməliyyat üçün rəqəmsal informasiyanın 1 və 0 rəqəmlərindən ibarət ikili şifri DNT şifrinin 4 hərfli əlifbasına çeviriblər. Bu şifrdən sintetik DNT-nin əsaslarını düzəltmək üçün istifadə edilib. Cihazlar DNT molekullarını oxuyub və şifrlənmiş məlumatı toplayıb.

İki həftə davam edən bu oxuma prosesinin nəticələri "Nature" jurnalının internet səhifəsində dərc olunub. Tədqiqatı dərc etdirən İngiltərədəki Avropa Bioinformasiya İnstitutundan Evan Bimey texnologiyanın inkişafı ilə bu prosesin tezləşəcəyini bildirib.

### Soyuq və qaranlıq yerdə saxlanmalıdır

Tədqiqatçılar DNT-nin külli miqdarda məlumatı, üzərində tez-tez düzəlişlər etməmək şərti ilə, uzun müddət saxlamaq üçün əlverişli olduğunu bildiriblər. Lakin qeyd ediblər ki, içinə məlumat yerləşdirilmiş DNT soyuq, quru, qaranlıq yerdə saxlanılmalıdır.

Tədqiqatın digər üzvü Nik Qoldman da bu texnologiyanın yaxın gələcəkdə milli tarixi mənbələr kimi əsrlərlə saxlanmalı böyük arxivlər üçün faydalı olacağını, on il ərzində istifadəçilərin nəvələrinə göstərəcəyi toy fotoşəkilləri və ya videoları kimi təqribən 50 illik məlumatı saxlamaq üçün əlverişli olacağını söyləyib.

Tədqiqatçılar içinə məlumat yerləşdirilmiş DNT-ni yaşayan bir şeyə çevirmək niyyətləri olmadığını da qeyd ediblər.

Harvard Universitetindən DNT üzrə mütəxəssis Corc Çörç Vikipediyadakı bütün məlumatı barmaq ucu, hal-hazırda disklərdə saxlanan bütün dünyanın məlumatını isə ovuc içi böyüklüyündə yerdə saxlamaq imkanı olacağını bildirib.

## QIŞ YUXUSUNDA BUZA DÖNÜR

Şimal qütbündə qış o qədər soyuq keçir ki, bəzi canlılar gecədən fərqi olmayan gündüzlərdə oyanmaq üçün zəhmət çəkmirlər. Bunlardan biri olan tarla sincabı səkkiz aylıq qış yuxusunda bədən temperaturunu ən aşağı səviyyəyə , -3 dərəcəyə salır.

Şimal qütbünün günəşsiz, dondurucu küləklər bürüyən qış aylarında canlılar həyatda qalmaq üçün bioloji xüsusiyyətlərini işə salırlar. Spermophilus parryii adı ilə tanınan tarla sincabı səkkiz aylıq qış yuxusu boyu dünya ilə əlaqəsini kəsir.

Tarla sincabı qış yuxusu zamanı bədən temperaturunu ən aşağı temperatura, -3 dərəcəyə salır. Yay gəldikdə oyanan sincab qısa müddətdə bədən temperaturunu yenidən qaldırır.

"New scientist" internet səhifəsinin verdiyi xəbərə əsasən, tarla sincabının -30 dərəcəyə çatan şaxtaya qarşı göstərdiyi bu qeyri-adi müqavimət ilk dəfə 25 il əvvəl kəşf edilib. ABŞ-nın Alyaska Universitetindən Brayen Barnz kiçik canlıların şaxtalarda necə həyatda qaldığını araşdırmaq üçün tutduğu sincabların qarnına radiosiqnal ötürücü yerləşdirib. Bu sayədə heyvanların qış yuxusuna getmək üçün çala qazmazdan əvvəlki bədən temperaturları ölçülüb.

### Buza dönür

Barnz, tarla sincabı qış yuxusuna getdikdə bədən temperaturunun +36 dərəcədən -3 dərəcəyə düşdüyünü aşkar edib. Sincab qanının donmasının qarşısını almaq üçün su molekullarının buz kristallarına çevrilməsinə səbəb olan bütün molekulları qan dövranı sistemindən təmizləyir. Beləliklə, qan sıfır dərəcədən aşağı temperaturda axıcılıq xüsusiyyətini saxlayır.

Tarla sincabı balıqlar kimi çox aşağı temperaturlu sularda donmanın qarşısını alan zülallara malik olmasa da, Arktika soyuqlarına tab gətirir. Barnz sincabların həddən artıq yavaş maddələr mübadiləsi sayəsində yağ ehtiyatlarından ən əlverişli şəkildə faydalandığını düşünür.



### Qış yuxusu sınağı

Sincabların "həddindən artıq soyuma" yuxusunun hədlərini ölçmək üçün Barnzın həmkarı Melani Rixter şaxtalı külək tunelinə qış yuxusuna getmiş sincabı qoyub. Daha sonra içərinin temperaturu həddindən artıq aşağı salınıb.

Külək tunelindəki temperatur -26 dərəcəyə düşdükdə sincab bədən temperaturunu -4 dərəcəyə salıb. Ancaq bu temperaturda sincab titrəməyə başlayıb və bir müddət sonra oyanıb. Elm adamları buna əsasən, sincabın ən çox -4 dərəcəyə qədər tab gətirdiyinə qərar veriblər.

Rixter tarla sincabının soyuğa qarşı qış yuxusu sınağından əldə etdiyi nəticələri bu ay ABŞ-nın San-Fransisko şəhərində təşkil edilmiş "Müqayisəli biologiya" iclasında təqdim edib. Tədqiqatçılar sincabların səkkiz ay donmuş çalada yatmasının təkcə şaxtadan qaynaqlanmadığını, Şimal qütbünün həmişə qaranlıq keçən qış və işıqlı keçən yay fəsillərində sincabların 24 saatlıq ritmlərini tənzimləməkdə çətinlik çəkdiyini deyib.



# İslam Dünyasında

## Məşhur ateist Allah'ın varlığını qəbul etdi

Allah'ın varlığını inkar edən, kainatın yaranmasını elmi dəlillərə əsaslandıran Hokinq Allah'ın varlığını qəbul etdi.

Yazıları səsə çevirən kompyuterin köməyi ilə danışan və illərdən bəri Allah'ın varlığını inkar edən fikirləri ilə ateistlər arasında məşhur olan fizika alimi Stiven Hokinq 70 yaşına qədəm qoyduğu yaxın günlərdə hamını təəccübləndirən ifadələr işlətdi. Hokinq dedi: "Kainatın yaranması elmi həqiqətə əsaslanır və bu, Allah`ın olmaması demək deyildir".

### İlk dəfə qəbul etdi

"Kanal D"-nin Londondakı nümayəndəsi Aişəgül Əkinçinin müsahibə götürdüyü Hokinq ilk dəfə Allah'ın varlığını qəbul etdi. Müsahibə əsnasında verilən bir suala Hokinqin verdiyi cavab onun öz işçi heyətini də təəccübləndirdi. Hokinq Allah ilə bağlı verilən sualı belə cavablandırdı: "Kainatın yaranması elmi həqiqətə əsaslanır. Lakin bu qətiyyən elmi qaydaları qoyan və onları yaradan Allah`ın olmaması demək deyildir..."

Hokinqin bu fikirlərinin son illərdə təkamül nəzəriyyəsinin səhv olmasının sübut edilməsi və Quranda 1400 il əvvəl qeyd edilən elmi mövzuların doğru çıxması ilə birbaşa əlaqəsinin olduğu bildirilir.



## ABDULLAH GÜL: İSLAM ÖLKƏLƏRİ ƏLAQƏLƏRİNİ MÖHKƏMLƏNDİRMƏLİDİR

Türkiyə prezidenti Abdullah Gül İslam ölkələrini aralarındakı iqtisadi və ticarət əlaqələrini daha da gücləndirməyə çağırıb.

Misirin paytaxtı Qahirədə keçirilən İslam Əməkdaşlığı Təşkilatının (İƏT) 12-ci Liderlər Zirvə Toplantısında iştirak edən Abdullah Gül dünyanın ciddi iqtisadi böhran keçirdiyini vurğulayıb və: "İslam aləmi kimi baş verən böhranların iqtisadiyyatımıza mənfi təsirini aradan qaldırmaq, inkişaf yolunda həmrəyliyimizi gücləndirmək üçün iqtisadi və ticarət əlaqələrimizi daha da möhkəmləndirmək əsas öhdəliyimiz olmalıdır", - deyib.



# Keçən Ay



## Rus şairləri Puşkin və Lermontov hz. Muhəmmədin (s.ə.v) heyranı idilər 180 rus şairinin İslam və hz. Muhəmməd (s.ə.v) haqqında şeiri var

Rusiya Müftilər Şurasının bu il təşkil etdiyi yeddinci "Aləmlərə rəhmət hz. Muhəmməd" adlı şeir müsabiqəsində mükafatlar sahiblərinə təqdim edilib. Müsabiqənin münsiflər heyətinin üzvü, şair Mixail Sinelnikov: "180 rus şairinin İslam və hz. Muhəmməd haqqında şeiri var. Bunlar arasında Rusiyanın məşhur şairləri Aleksandr Puşkin, Mixail Lermontov və İvan Bunin var. Bu şairlərin şeirlərindən hz. Muhəmmədə heyran olduqlarını görürük", - deyib.

Yarışa yüzdən çox şeir göndərilib, lakin bunların arasından 74-ü ilk mərhələdən keçib. Birinci yerə layiq şeir olmayıb, ikinci yeri isə "Quranın ucsuz-bucaqsız genişliyi" adlı şeiri ilə 12 il əvvəl İslamı qəbul etmiş rus şair Cənnət-Sergey Markus tutub. Gənc şair Rinat Süleymanov da "Qaranlıq günəş" adlı şeiri ilə ikinci yeri tutub. Rus mənşəli şair Valeriy İvanov isə Qədir gecəsinə ithaf etdiyi "Leylətul-Qadr" şeiri ilə üçüncü yerə layiq görülüb.

Mükafatlandırma mərasimində nitq söyləyən RMŞ sədri Qaynuddin hz. Muhəmmədin doğulduğu Rəbiül-əvvəl ayı ərzində Rusiyada yaşayan müsəlmanların xeyriyyə məqsədli fəaliyyətlər təşkil etdiklərini, Peyğəmbərin (s.ə.v) əxlaqından danışdıqlarını bildirib. Müftilik fəaliyyətlər çərçivəsində həbsxanalara baş çəkir, seminar və konfranslar təşkil edir.



## BİRLİYİMİZ BİZİ İTTİHADİ-İSLAMA APARACAQ

9-cu Beynəlxalq Gənclər Görüşünün bəyannaməsi dərc olunub

İslam Dünyası Vətəndaş Cəmiyyəti Təşkilatları Birliyinin (İDVB) ildə 2 dəfə təşkil etdiyi Beynəlxalq Gənclər Görüşlərinin (BGG) 9-cu görüşü bu il Kiprdə olub. 29 yanvar-3 fevral tarixləri arasında keçirilmiş proqramda 40-dan artıq ölkədən 100-dən çox 18-28 yaşlı gənc və tanınmış insan iştirak edib. Hər BGG-də olduğu kimi, 9-cu BGG-də də forum təşkil edilib. Forumun əsas mövzusu isə "İslam dünyasında problemli bölgələr və həll yolu təklifləri" olub. Kipr Yaxın Şərq Universitetində 3 gün ərzində davam edən forumda dünyanın hər tərəfindən gələn müsəlman gənclər öz ölkələrindəki problemlərdən bəhs edərək səslərini digər müsəlman qardaşlarına çatdırıblar. Fikir və təcrübələrini bölüşdükdən sonra problemlərin qısa və uzunmüddətli həlli yolları üçün təkliflər irəli sürülüb.

# Dua Sıxıntı Və Zərərə Yol Açan Hadisələrə Qarşı Sədd Çəkir



- Möminlərlə zəif imanlı insanların duaları arasındakı fərq nədir?
- İnsan dua edərkən nəyə diqqət etməlidir?
- "Birdən olsa" məntiqi ilə dua etmək nə üçün böyük qəflətdir?

Bəzi insanlar vərdiş kimi, xüsusilə də çətin vəziyyətlərdə dərhal Allah'a dua edirlər. Ancaq bu insanların duası möminlərin duasından çox fərqlidir. Çünki bu insanlar ancaq çətinlik anlarında Allah'a möhtac olduqlarını xatırlayır və o an sıxıntıdan xilas olmaq üçün uca Allah'a üz tutaraq dua edirlər. Halbuki, insanın həyatında Allah'a möhtac olmadığı bircə an da yoxdur. İman zəifliyi olan insanlarla möminlərin dualarındakı fərq burada üzə çıxır.

Möminlər həmişə və hər vəziyyətdə Allah'a üz tuturlar. Dua etmək üçün özlərinə sıxıntı gəlməsini gözləmirlər. Allah'a hər an yaxınlaşmağa ehtiyac duyurlar. Ancaq zəif imanlı insanların xarakterlərinin ən əsas xüsusiyyəti Allah'a qarşı çox nankor və ikiüzlü olmalarıdır. Özləri sıxıntıda ikən hər şeyi bir kənara qoyaraq Allah'a dua edir, sıxıntıları keçdikdə sanki dua edən onlar deyilmiş kimi (Allah'ı tənzih edirik) Allah'ı unudurlar. Çünki hadisələrin böyük əksəriyyətinin Allah'dan başqa varlıqların idarəsi altında baş verdiyini düşünürlər. Bu insanlar dünyadakı hər şeyin Allah'ın iradəsi ilə baş verdiyini bilmirlər. Dayaz düşüncələrinə görə, baş verməsini istədikləri hər şeyi onsuz da Allah`ın idarə etdiyini düşünmürlər. Məsələn, bir xəstəliyə tutulduqda onları sağaldanın həkim, dərman və ya xəstəxananın qabaqcıl texnoloji imkanları olduğunu zənn edirlər. Hər xəstəliyə şəfa verənin, lazımi dərmanı, həkimi yaradanın Allah olduğunu düşünmürlər. Çox güvəndikləri həkimlər, dərmanlar kömək etmədikdə, həmin ana qədər çox az düşündükləri, bəlkə də heç düşünmədikləri Allah'a sığınmaq fikrinə yönəlirlər. Halbuki, şəfa verən ancaq Allah'dır. Belə insanlar bunu qavramırlar və nankorluq edirlər. Bu nankorluqları bir ayədə belə xəbər verilir:

**İnsana bir sıxıntı üz verən zaman uzananda da, oturanda da, ayaq üstə duranda da Bizə dua edər. Lakin onu sıxıntıdan qurtardıqda ondan ötrü Bizə heç dua etməmiş kimi çıxıb gedər. Həddi aşanlara etdikləri əməllər beləcə yaxşı göstərildi. (Yunis surəsi, 12)**

Hər insanın çətin anlarda Allah'ı xatırlaması o deməkdir ki, əslində, hər kəs sığınacağı yeganə varlığın Allah olduğunu bilir. Daha əvvəl nəfsinin mənfəatinə zidd olduğuna görə etinasız yanaşdığı bu həqiqət böyük sıxıntı ilə qarşılaşdıqda dərhal xatırlanır.

## *Dua Allah'a yaxınlaşmağın ən asan yoludur*

İnsan dua edərkən Allah'ın isimlərini düşünməlidir. O, insana şah damarından daha yaxın olan, hər şeyi bilən və eşidəndir. İnsanın içindən keçirdiyi bircə düşüncə də Allah'a gizli qalmır. Elə isə Allah'dan bir şey istəmək üçün insanın sadəcə səmimi şəkildə düşünməsi belə kifayətdir. Allah'a yaxınlaşmaq bu qədər asandır.

"Furqan" surəsinin 77-ci ayəsində insanlar **"Əgər duanız olmasa, Rəbbimin yanında nə qədir-qiymətiniz olar?"** ifadəsi ilə xəbərdar edilirlər. Duasız həyatın Allah qatında hər hansı dəyərinin olmadığı bu ayədə xüsusi vurğulanmışdır. Çünki dua uca Rəbbimizin qarşısında çox aciz olan insanın Ona üz tutması, səhvlərini etiraf etməsi və ancaq Ondan yardım istəməsi, Onun varlığını və gücünün böyüklüyünü hiss etməsi və gündəlik həyatının hər anında bu şüurla hərəkət etməsi üçün çox mühüm səbəbdir.

Bazarda, küçədə, avtomobilin içində, məktəbdə, iş yerində, qısaca desək, hər məkanda və hər zaman dua edilə bilməsi, dua etmək üçün müəyyən məhdudiyyət qoyulmaması Allah'la əlaqənin fasiləsiz davam etməsini təmin edir. Belə ki, Allah ilə yaxın əlaqə quraraq səmimi dua ilə günə başlayan möminin gün ərzində Allah'ın rizasını unutma və ya Allah'ın hədlərinə etinasız yanaşma ehtimalı, Allah'ın izni ilə, aradan qalxır. Günə dua ilə başlayan insan gün ərzində Allah'ın ona nəzarət etdiyini dərk edərək hərəkət edər. Gecə duası isə gün ərzində dünyəvi məşğuliyyətlərlə vaxt keçirən

insanın öz-özünü vicdanən haqq-hesaba çəkməsinə səbəb olur, insanın gün ərzində başına gələn və zahirən mənfi görünən hadisələri daha hikmətli, təvəkküllü və şüurlu dəyərləndirməsini təmin edir. Bu düşüncə tərzi gün ərzində edilən səhvlərin gözdən keçirilməsinə və tövbə edilməsinə, Allah'dan bağışlanma istənməsinə və gündəlik məşğuliyyətlərin insana mənfi təsirinin qarşısının alınmasına səbəb olur.

İnsanın ancaq çətinliklərlə qarşılaşdıqda dua etməsi qeyri-səmimi davranışdır, çünki Allah'a hər an könüldən yaxın olmaq vacibdir. İnsanın gün ərzində ağlına gəldikcə tez-tez yaxın və səmimi şəkildə Allah'a dua etməsi Allah'ın razı olduğu gözəl davranışdır. Unutmaq olmaz ki, Özündən başqa heç bir sığınacaq olmayan yeganə uca varlıq aləmlərin Rəbbi olan Allah'dır.

Cənab Adnan Oktar duanın əhəmiyyətini açıqlayır:

***Vaxt və imkan var ikən Allah'a səmimi dua etmək lazımdır. Bəla gəldikdən sonra deyil. Duanı gecikdirmək olmaz. Duanı gecikdirdikdə bəla yol tapıb gəlir, Allah qorusun. Müsəlman gününü duasız keçirməməlidir. Səhər, günorta, axşam, beş vaxt namazda daima Allah ilə əlaqə qurulmalıdır. Duanın dayandırılması bəlanın gəlməsinə səbəb olur. Dua bəlanın qarşısını alan səddir. Açsan, bəla oradan axıb gələr. Çünki Allah'ı unutmuş olursan. Onda da Allah Özünü xatırladacaq başqa şey edə bilər. (13 may 2012, A9 TV)***



## İnsanların başına çətinlik, sıxıntı və müsibətlər ancaq Allah'ın izni və yaratması ilə gəlir

İnsanların başına zəlzələ, yanğın, sel kimi təbii fəlakətlərlə yanaşı, qəza, xəstəlik kimi zahirən zərərli və sıxıntı kimi görünən hadisələr də gələ bilər. Ancaq bütün bu hadisələr Allah'ın izni və yaratması ilə baş verir. Allah bəla və müsibətlə bağlı Ona dua edən qullarını qoruyur. Peyğəmbərimiz (s.ə.v) bir hədisində belə buyurur: *"Bir şey istədikdə Allah'dan istə.*



*Kömək istədikdə, Allah'dan istə. Çünki qullar Allah'ın yazmadığı şey üçün sənə fayda vermək üçün birləşsələr, bu faydanı verməyə qadir olmazlar. Allah'ın yazmadığı zərəri sənə vermək üçün birləşsələr, buna da qadir olmazlar."* (Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16-cı cild, Akçağ Yayınları, Ankara, 1992, s. 314)

Hədisdə bildirildiyi kimi, insanlar başlarına gələn sıxıntı və şər kimi görünən hadisələri dua ilə aradan qaldıra bilərlər. Çünki Allah'ın Hafiz (qoruyan, nəzarət edən, mühafizə edən) ismi var. Bu ismə sığınaraq dua etmək insanın qorunmasına vəsilə olan mühüm ibadətdir. Ancaq insan əsla Allah'ın yaratdığı qədəri mühakimə etmə və tənqid etmə haqqına sahib deyil. Tam təslimiyyətlə iman gətirmiş insan üçün Allah'dan gələn şər kimi görünən hadisədə də mütləq xeyir vardır. Əslində, bu, insanın bir malı sığorta etdirdikdə o mala zərər gəlməsinin qarşısını almadığı halda, sığorta etdirməsinə bənzəyir. Eynilə bu nümunədə olduğu kimi, əgər insanın qədərində varsa, başına bəla və müsibətlər gələ bilər. Ancaq insan bunun Allah'ın yaratdığı bir sirr olduğunu bilərək Allah'a təslim olub Ona yalvara-yalvara dua etməli və Allah'ın bu gözəl isminə sığınaraq onu müsibətlərdən qorumasını uca Rəbbimiz Allah'dan diləməlidir. Çünki Allah duaya cavab verdiyini bir ayəsində belə bildirmişdir:

**Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər. (Bəqərə surəsi, 186)**

## *Peyğəmbərimiz (s.ə.v) Allah'a dua etməyin əhəmiyyətini bildirmişdir.*

Hər məsələdə olduğu kimi, dua etmək məsələsində də ən gözəl nümunə Peyğəmbərimizdir (s.ə.v). Rəvayətlərdə Allah'ın bütün aləmlərə rəhmət kimi göndərdiyi Peyğəmbərimizin (s.ə.v) Rəbbimizə olan səmimiliyini, gözəl əxlaqını, təslimiyyətini və imanının dərinliyini göstərən duaları bildirilir.

Bunlardan bəziləri belədir:

Əbu Musa əl-Əşari belə rəvayət edir: "Peyğəmbər (s.ə.v) belə dua edərdi: *"Ey Rəbbim! Mənim günahımı, bilgisizliyimi, hər işimdə israfımı və məndən daha yaxşı bildiyin qüsurlarımı bağışla! Ya Allah! Mənim xətalarımı, qəsdən və ya bilmədən etdiklərimi, zarafatlarımı bağışla! Bunların hamısı məndə var. Ya Allah! Əvvəldən etdiyim, sonradan edəcəyim, gizlətdiyim və aşkar etdiyim bütün günahlarımı Sən bağışla! Önə keçirən ancaq Sənsən, sonraya saxlayan da ancaq Sənsən. Sən hər şeyə qadirsən!"* (Sahih-i Buhari ve Tercümesi, Mütercim: Mehmed Sofuoğlu, Ötüken Yayınları, İstanbul 1987, Cilt 14 s. 6336)



yenə də bəlkə əksi olar deyə dua edim" fikri ilə Allah'a yönəlirlər. Bu düşüncələri ilə, əslində, öz çıxardıqları nəticələrinin reallaşması üçün dua etdiklərini anlamırlar. Çünki belə bir insanın inandığı və dəstəklədiyi fikir, əslində, öz çıxardığı nəticələrdir. İstədiyi şeylərin həyata keçməsi üçün isə bunun tam əksini etməlidir: Allah'a tam güvənərək və Allah'ın istədiyi hər şeyi yaratmağa qadir olduğuna çox inanaraq dua etmək...

Səmimi imanın və səmimi duanın ən əsas şərtlərindən biri insanın özünə aid dünya həyatının görünən üzünə aldanaraq çıxardığı nəticələri ağlından çıxarmasıdır. Allah'ın sonsuz, özünün isə çox məhdud və səthi ağlı olduğunu bilməlidir. Allah'ın istədiyini yaratmaq üçün sonsuz gücə malik olduğunu və öz acizliyini görməlidir. Hadisələrin kənardan görünən tərəfi ilə ardında gizlənən həqiqətlərin eyni olmadığını və bunları ancaq Allah'ın bildiyini qavramalıdır. Səbəblərə baxaraq çıxardığı nəticələrin əksər hallarda aldadıcı ola biləcəyini, Allah'ın gücünün bütün bunlardan üstün olduğunu anlamalıdır. Bir insan qəlbində Allah'a dərin sevgi, təvəkkül və təslimiyyət hiss edirsə, Allah'ın bu insan üçün hər hadisəni ən gözəl, ən xeyirli şəkildə nəticələndirəcəyini unutmamalıdır.

Allah'ın sıxıntı və ehtiyac içində olan səmimi qulunu mütləq rəhməti ilə əhatə etdiyinə əmin olmalıdır.

Dua onsuz da qədərimizdə olana doğru bizi istiqamətləndirir. Qədərimizi təqdir edən də, bizə duanı etdirən də Allah'dır. İmam Rəbbani bu mövzuda belə deyir:

***"Bir şeyi istəmək ona nail olmaq (onu əldə etmək) deməkdir, çünki Allah-Taala qəbul etməyəcəyi duanı quluna etdirməz".*** (İmam Rəbbani)

## *"Birdən olsa" məntiqi ilə dua etmək böyük qəflətdir*

Bəzi insanlar da Allah'a iman gətirir və gün ərzində Allah'ın bu isimlərinin təcəllilərini həyatlarında açıq-aşkar görürlər. Allah'ın nə qədər böyük lütf sahibi olduğunu, iman gətirənlərə nə qədər gözəl həyat bəxş etdiyini, hər insana nə qədər çox nemət və ruzi verdiyini çox yaxşı dərk edirlər. Ancaq yenə də dua edərkən bəzən bu həqiqətlər barədə qəflətə düşür, Allah'ın dualarına mütləq qarşılıq verəcəyinə tam inanmırlar. Hadisələri Allah'ın sonsuz gücünə görə deyil, dünyadakı şərtlərə, hadisələrin gedişatına, səbəblərə baxaraq dəyərləndirirlər. Öz ağılları ilə həyat və baş verən hadisələr haqqında fikir irəli sürür, nəticə çıxarırlar. Məsələn, "2+2" mütləq 4 edir, bu iki rəqəmin cəmindən başqa nəticə çıxarmağın qətiyyən mümkün olmadığı diaqnozunu qoyurlar. Bu inanclarını isə dualarında da əks etdirirlər. Allah'dan bir şey istədikdə, əslində, dünyada bunun baş verməsinin qeyri-mümkün olduğuna qəti inanırlar (Allah'ı tənzih edirik). Bu yanlış inanclı insanlar Allah'a "birdən olsa" məntiqi ilə dua edirlər. "Mən bu hadisələrin necə olacağını bilirəm, nəticə mütləq belə olacaq, ancaq mən



# Bir ayə, Bir açıqlama

**Ey iman gətirənlər! Allah'dan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda ölün! (Ali-İmran surəsi, 102)**

Ayədə Allah qorxusunun əhəmiyyəti bildirilmişdir. Quran əxlaqı Allah rizası və qorxusu üzərində qurulmuşdur. Allah'dan layiqincə qorxanlar və ancaq Allah'ın razılığını hədəf edənlər din əxlaqı ilə səmimi yaşaya bilərlər.

Allah'dan layiqincə qorxmaq Quranda çox açıq və ətraflı izah edilmişdir.

Möminin Allah qorxusu çox dərin və hörmət dolu qorxudur. Digər qorxular kimi insana sıxıntı və əzab verən qorxu deyil. Tam əksinə, insana qulluğunu və acizliyini xatırladan, onun ağlını və şüurunu açan, insanı üstün əxlaqi səviyyəyə çatdıran və Allah'a yaxınlaşdıran hörmət dolu qorxudur.

Möminin axirət həsrətini artıran, ümidini və şövqünü alovlandıran, onu pis əməllərdən çəkindirib Allah'ın rizasına, rəhmətinə və cənnətinə yaxınlaşdıran, buna görə də çox böyük mənəvi həzz verən hissdir.

Möminə Allah'ın hədlərini qorumaq, Allah'ın rizasını qazanmaq üçün dərin şüur, diqqət və dəqiqlik qazandırır.

Mömin Allah'dan qorxarkən Allah'ın şəfqətini, mərhəmətini, bağışlayan olduğunu, Onun nemətlər bəxş edən, tövbələri qəbul edən olduğunu da unutmaz. Bu da hiss etdiyi dərin qorxu ilə birlikdə bir tərəfdən də daxilən çox güclü ümid bəsləməsinə səbəb olur. İçindəki Allah qorxusu Allah'ın bu isimləri üzərində çox dərin təfəkkür etməsinə, Allah'ın üstünlüyünü və böyüklüyünü daha yaxşı təqdir etməsinə, beləcə, Allah'a daha çox yaxınlaşmasına vəsilə olur. Allah'ın mərhəmətini, şəfqətini daha yaxşı dərk edir.

Ayənin ardında Rəbbimiz qullarını həyatlarının son anına qədər müsəlman əxlaqına uyğun yaşamaları üçün xəbərdar edir. Ancaq Allah'dan qorxan, ancaq Allah'ı razı etməyə çalışan, həmişə vicdanla hərəkət edən, Quranda bildirilən gözəl əxlaqla yaşayan, daima Allah'ın hədlərini qoruyan və hər zaman Rəbbimizə üz tutan möminləri, Allah'ın izni ilə, heç bir şərait və ya hadisə həqiqi məqsədindən uzaqlaşdırmaz, məhşər günü məsuliyyətindən çıxa bilməyəcəkləri bir şeyə yönəltməz.

# Din Allah Üçün Yaşamaqdır

- *"Allah üçün yaşamaq" nə deməkdir?*
- *Cənab Adnan Oktar dinin Allah'ın qullarına lütfü olduğunu necə izah etmişdir?*

Müsəlmanlar Allah'ın varlığını və böyüklüyünü dərk edən, Onu çox sevən, Ondan qorxub çəkinən və həyatlarını bu həqiqətə uyğun tənzimləyən insanlardır. Digər insanlar isə (Allah'ı tənzih edirik) ya Allah'ı inkar edənlər, ya da Allah'ın varlığını qəbul etmələrinə baxmayaraq, Allah'dan qorxub çəkinməyənlərdir.

Bu cür insanlar onları yaradan Allah'ı yada salmadan yaşayırlar. Böyük ağılsızlıqla, həyatlarının kim tərəfindən, necə və nə üçün başladığına etinasız yanaşırlar. Beyinlərində (Allah'ı tənzih edirik) Allah'a və Onun dininə yer olmayan yeni həyat qurmağa çalışırlar. Quranda isə belə həyatın boş təməl üzərində qurulduğu xəbər verilir və uçub dağılacağını



Rəbbimiz bu hikmətli bənzətmə ilə bildirir:

**Binasını Allah qorxusu və (Onun) rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

Allah'ın ayədə xəbər verdiyi kimi, Quranda tərif edilən imana malik olmayanların həyatı uçurumun kənarında qurulmuşdur. Onların həyatdakı yeganə məqsədi bu dünyada xoşbəxtlik və rahatlıq əldə etməkdir. Əlbəttə, dünyada insanın rahat yaşamaq istəməsi normaldır, ancaq bunun sadəcə dünyəvi istəklərlə olması doğru deyil.

Bu cür insanların hədəfi bəllidir. Bəziləri varlı olmaq istəyir və məqsədinə nail olmaq üçün – lazım gələrsə, gözəl əxlaqlı davranmaz - əlindən gələni edər, bütün fiziki və zehni gücünü varlı olmaq üçün sərf edir. Bəzisi də həyatdakı məqsədini yüksək mövqeli və məşhur insan olmağa həsr edir. Bunun üçün hər cür çətinliyə tab gətirir, hər yola əl atır. Ancaq bunların hamısı ölümlə yox olan, dünya həyatına aid məqsədlərdir. Həmin insanlar bu məqsədlərinə nail olsalar, həyatları boyu istədikləri kimi yaşasalar, hətta planlarında olandan artığını əldə etsələr də, əsla mənəvi cəhətdən rahat olmaz, axtardıqları rahatlıq, xoşbəxtlik və sevgini tapa bilməzlər. Çünki əsl xoşbəxtlik, dərin sevgi və qəlbən rahatlıq ancaq səmimi imanla qazanılan nemətlərdir.

## Mömin Allah'ın varlığını və gücünü dərk edir

Möminin ən əsas xüsusiyyəti Allah'ın onu nə üçün yaratdığını və ondan nələr istədiyini bilməsidir. Ona görə də dünyadakı əsl məqsədi Allah'ın razı qaldığı qul olmaq üçün çalışmaqdır. İman gətirən insan məqsədinə çatmaq üçün hər yola əl atar, ciddi səy göstərər. Bu yolla digər insanlar üçün son hesab edilən ölümün də əsl mənasını bilir: ölüm yox olmaq deyil, əsl həyata keçiddir.

Mömin olmayanların bir qismi böyük ağılsızlıqla həyatlarının təsadüfən və öz-özünə əmələ gəldiyini hesab etdikləri kimi, həyatlarına son qoyan ölümün də öz-özünə baş verdiyini zənn edirlər. Halbuki, həyatı da, ölümü də yaradan Allah'dır. Əsla təsadüf və ya qəza olmayan ölüm uca Allah'ın xüsusi yaratdığı, hər kəs üçün ayrı zamanı və yeri müəyyən edilmiş hadisədir.

Mömin də Allah'ın hər şeyə hakim olduğunu bilir, ölümün son deyil, əsl həyata – axirətə keçid olduğunu qavrayır. Bu həqiqətləri dərk edərkən, əlbəttə, digərləri kimi həyatını uçurumun kənarında qurmaz. Onu və bütün kainatı yaradanın uca Rəbbimiz olduğunu, həyatın, ölümün və ölümdən sonrakı əsl həyatın sahibinin Allah olduğunu bildiyinə görə uca Allah'a üz tutur. Pulun, mövqe və məqamın, fiziki gözəlliyin Allah'ın yaratdığı və hər an yaratmaqda davam etdiyi bu sistemin

içində xilas yolu olmadığını görür. Bunlar ancaq Allah'ın qoyduğu qanunlar sayəsində bir müddət qüvvədə olan səbəblərdir. Allah'ın yaratdığı sistemin təməli isə Allah'ın rizasıdır. Çünki Allah Quranda ancaq Onun rizasını istəyənləri doğru yola yönəldəcəyini bildirmişdir:

**Allah, Onun rizasını arayan şəxsləri əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 16)**

Allah'ın gücünü təqdir edən və həyatını Allah rizası üzərində quran insanın ən əsas xüsusiyyətlərindən biri hər an ancaq Allah'ın rizasını və rəhmətini düşünərək hərəkət etməsidir. O, həyatını Allah'ın razılığını qazanmaq, Ona qul olmaq məqsədi üzərində qurduğuna görə, bütün kainatı Allah'ın yaratdığını və idarə etdiyini qavramış və fərqli düşüncə tərzinə malikdir. Yalnız Allah'ı tək İlah kimi tanıdığına görə, saxta ilahlar mömin üçün heç nə ifadə etmir. Allah Quranda bu mövzunu hz. İbrahimin (ə.s) sözləri ilə belə vurğulamışdır:

**Kitabda İbrahimi də xatırla! Həqiqətən, o, doğru danışan kimsə və peyğəmbər idi. Bir zaman o, atasına demişdi: "Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən?" (Məryəm surəsi, 41-42)**

## Müsəlmanlar Allah'ın rizasını istədiklərinə görə dindardırlar

Müsəlmanlar dinin Allah'ın rizasını qazanmaq üçün haqq yol olduğunu bilirlər. Bəzi insanların cahil fikirlərinə görə, din bəzi inanclardan ibarət qayda-qanunlar toplusudur və həyatda dinin mühüm yeri yoxdur. Şübhəsiz ki, bu insanlar yanlış düşüncələrinin ağır cəzasını dünyada çəkirlər, axirətdə qarşılaşacaqları vəziyyət isə daha əziyyətli olacaq. Əsl möminlərlə özlərini mömin kimi göstərən ikiüzlü insanlar (münafiqlər) arasındakı fərq də burada üzə çıxır.

Möminlər dini Allah rizası üçün şövqlə, istəklə yaşayır, münafiqlər isə öz mənfəətləri üçün sadəcə mömin kimi görünməyə çalışırlar.

Dinə səmimi inanmadıqları və din əxlaqı ilə yaşamadıqları halda, özlərini inanırmış və din əxlaqı ilə yaşayırmış kimi göstərirlər.



**Möminlər beş vaxt namazlarını huşu (Allah'a qarşı hörmət dolu qorxu) ilə (Muminun surəsi, 1-2), münafiqlər isə namazı insanlara göstəriş üçün qılırlar (Maun surəsi, 6).**

## Münafiqlər mallarını Allah yolunda deyil, insanlara göstəriş üçün sərf edirlər

**Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allah'a və axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz. (Bəqərə surəsi, 264)**

Dini Allah üçün yaşamaq, başqa sözlə, müsəlman olmaq Allah'a qul olmaq və Onun verdiyi nemətlərdən Ona şükür edərək istifadə etməkdir. Allah'ı tanımaq və həqiqətən, üstün əxlaqlı insan olmaq üçün cəhd etməkdir. Əsl müsəlman onu yaradan sonsuz qüdrət sahibi Allah'ın rizasını istəyən, Onun rizasından başqa heç bir maddi və ya mənəvi qarşılıq gözləməyən insandır. Müsəlmanlığın təriflərindən biri budur.

## Din əxlaqı ilə yaşamaq hər şeydən əvvəl Allah'ın rizasını və sonsuz cənnətini qazanmaqdır

Allah Onun əmr və tövsiyələrini yerinə yetirdikdə, Quranda qoyduğu hədlərə riayət etdikdə insanlara əbədi cənnət nemətlərini vəd edir. Allah'ın vədindən dönməyəcəyi isə Quranda bildirilən qəti həqiqətdir. Elə isə din əxlaqı ilə yaşayan insan həyatının hər anında cənnətə girmə ümidi və sevinci ilə yaşayar. Keçən hər an, hər gün onu cənnətə yaxınlaşdırdığına görə bu sevinci daha da artar. Digər insanların sıxıntılı və bədbin əhval-ruhiyyəsi dindar insanda qətiyyən yoxdur. Bu baxımdan cənnət sevinci din əxlaqının qazandırdığı gözəlliklərdən biridir. Cənnət isə ən böyük nemətlərdəndir. Bu həqiqətə Quranda belə diqqət çəkilmişdir:

**Bunlar Allahın hədləridir Hər kəs Allah'a və Peyğəmbərinə itaət edərsə, Allah onu altından çaylar axan cənnətlərə əbədi olaraq daxil edər ki, bu da böyük qurtuluşdur! (Nisa surəsi, 13)**





## Cənab Adnan Oktar: "Din Allah'ın ixlaslı qullarına lütfüdür"

*"Biz fitrətimizlə dini onsuz da anlayırıq, bilirik. Bir Allah olduğunu, bir Yaradan olduğunu, bir çox şeyi bilirik. Ancaq təfərrüatları bilmərik. İncəlikləri bilməyimiz üçün də bu dünyanı yaradan Allah dünyadan necə istifadə edəcəyimizi bizə yazılı şəkildə bildirir. Buna din deyirik. Allah bizə bir kitabla bildirir. Yoxsa dünyadan necə istifadə etməyi bilmərik. Allah: "Belə etsəniz, məhv olar, zəhərlənib ölərsiniz. Ancaq belə etsəniz, çox yaxşı olar, xoşbəxt, sağlam, gözəl olarsınız. Mən də sizə gözəl mükafat verərəm", - buyurur.*

*Özümüz bunu bilə bilmərik. Ancaq, məsələn, arı üçün bu, mümkündür. Arıya Allah vəhy edir, biliyi hazır bildirir. Balasına necə baxmağı, pətəyi necə təmizləməyi, yad arını necə öldürməyi, balın keyfiyyətini necə anlayacağını, hansı bucaq altında pətəyin gözlərini inşa edəcəyini, pətəklərini altıbucaqlı formada necə edəcəyini və s. Yüzlərlə, minlərlə vəhyi, yəni onların şəriətini Allah onların kiçik beyinlərinə yerləşdirir. Arılar çox dürüst, xeyirxah və çalışqandırlar. Çünki Allah: "Çalışqan olun", - deyir və çalışqan olurlar. "Təmiz olun, hər gün təmizlənməlisiniz", - buyurur. Pəncələri ilə üzünü, ayaqlarını silir. Gecə-gündüz təmizlənir. Ancaq biz bunu bilmirik, Allah bizə dinlə, kitab göndərərək öyrədir. Allah bizim aramızdan bir insan seçir, mübarək peyğəmbər seçir, ona vəhylə bildirir. Bu isə kitab olur.*

*Allah bizə Quranı yaradır. Onun içindəki hökmləri yerinə yetirdikdə rahat oluruq. Qurana tabe olmadıqda isə, görürsünüz, qorxunc bəlalar baş verir. Suriyadakı bəla nə üçün baş verir? Qurana tabe olmadıqları üçün. Liviyada, Əfqanıstanda. Amerikadakı iqtisadi böhranın, Yunanıstanın iqtisadiyyatının tənəzzül etməsinin səbəbi nədir? Dünyadakı özünəqəsd hadisələrinin səbəbi nədir? Qurana tabe olmadıqda dünya məhv olur, inşaAllah.* (7 oktyabr 2012-ci il, A9 TV)



# Bəzi qərb filosoflarının qadın düşmənçiliyi



## Artur Şopenhaur:

Qadınlar uşaqlıq illərimizdə bizim dayələrimiz və tərbiyəçilərimiz olmağa birbaşa uyğunlaşırlar - səbəbi sadədir: çünki onlar özləri də uşaqsayağı, axmaq və kəmağıldırlar- bir sözlə, həyatları boyu "böyük uşaq" kimi davranırlar, bir növ uşaqla yetkin insan arasındadırlar. Bir düşünün, bir gənc qız uşaqla günlərlə necə oynayır, rəqs edir, mahnı oxuyur və dünyada ən yüksək məqsədləri olan bir kişi onun yerində olsa, nə edərdi.
*("On Women" by Arthur Schopenhauerhttp://www.theabsolute.net/misogyny/onwomen.html)*



## Çarlz Darvin:

"Uşaqlar..., daimi dost, yaşlı vaxtlarda maraqlı birisi, sevilən və oyun oynanılacaq bir varlıq… Hər şeyə baxmayaraq, itdən daha yaxşı bir şey. Evin işləri ilə maraqlanan bir adam. Musiqidən, havadan-sudan boş söhbətlər. Bunlar sağlamlıq üçün yaxşı şeylərdir".

Charies Darwin, The Autobiography of Charles Darwin 1809-1882 (Ed. by Nora Barlow), New York: W. W. Norton & Company, Inc., 1958, 232-233



## Fridrix Nitsşe:

Qadının sevgisi sevmədiklərinə qarşı ədalətsizliyə və düşüncəsizliyə sövq edir... Qadın heç dostluq etməyi də bacarmır: qadınlar pişik və quş kimidirlər və ən yaxşı halda inəyə bənzəyirlər.
*Fridrix Nitsşe(«Zərdüşt belə buyurdu» - Dost haqqında)*

Qadınların dərin olduğunu düşünürlər - niyə? Çünki kimsə onların dibini tapa bilmir. Qadınlar heç dayaz da deyillər.
*«Bütlərin qürubu» (1888), "Düsturlar və oxlar", 27*

"Qadınların yanına gedirsiniz? Qamçını götürməyi unutmayın"
*1-ci fəsil, Yaşlı və gənc qadınlar haqqında, "Zərdüşt belə buyurdu"*

# Quran Əxlaqında Qadın və Kişi Bərabərdir

Qadınlar dünyanın ən gözəl varlıqlarındandır. Gözəl əxlaqlı, dərin mənəviyyatlı, mərhəmətli, incə düşüncəli, fədakar qadınlar ruhun şəfasıdır. Bir çox insanla müqayisədə onların ağlı, diqqəti daha kəskin, incəlikləri görmə qabiliyyətləri daha üstündür. Sevib-sevilməyi, şəfqəti, dostluğu, qardaşlığı bir çox insandan daha yaxşı bilirlər. Ata-anaları, qardaş-bacıları, həyat yoldaşları, dostları, uşaqları üçün həmişə hər yerdə çox böyük nemətdirlər.

Ancaq bu qədər dəyərli olmalarına baxmayaraq, çox təəccüblüdür ki, dünyanın hər yerində qadınlar layiqincə qiymətləndirilmirlər. Demək olar ki hər gün dünyanın hər guşəsindən zülmə, zorakılığa məruz qalan, iş tapmayan, pis münasibət görən qadınlar haqqında xəbərlər eşidirik. Qadınların başlarına gələn çətinliklər televiziya, internet saytları və qəzetlərin ən çox işlənən xəbərlərindəndir. Lakin nədənsə ən inkişaf etmiş ölkələrdə belə bu vəziyyətə lazımi həll yolu tapılmır, qadınların çəkdiyi sıxıntılar hər yerdə az-çox davam edir. Müxtəlif hüquqi tənzimləmələrin aparılmasına, cəmiyyətin bu istiqamətdə tərbiyə olunmasına, qadınların qorunması üçün bir çox tədbir görülməsinə baxmayaraq, qadınlar hələ də layiq olduqları rahatlığa qovuşa bilməyiblər. Əlbəttə, bunun ən əsas səbəblərindən biri cəmiyyətə hakim olmuş insanların mənəviyyatındakı pozuntudur. Özləri belə sevib-sevilməkdən, şəfqət və mərhəmətdən, gözəl əxlaqdan, yaxşılıq etməkdən, fədakarlıqdan, anlayışlı olmaqdan zövq almayan insanlar, şübhəsiz ki, başqalarına da belə davranmır, buna ehtiyac hiss etmirlər. Qarşısına sadəcə “həyat uğrunda mübarizə” məqsədi qoymuş bir çox insan yemək-içmək, yatmaq, sığınacaq tapmaq



kimi bəsit ehtiyaclarını qarşılamaqdan başqa heç nə düşünmür. Bir qadındakı gözəl xüsusiyyətləri, incəlikləri görmür, onun dəyərini bilib uca tutmur, şövqləndirmir, nəzakətli davranmır, özü də həyatında bu gözəllikləri axtarmır. Hətta bütün bunlar lap yaxınlığında olsa da, bəlkə bunlardan da üz çevirər, maraqlanmaz və laqeyd yanaşar. Bir çox insan dünyada yaşamaq təşvişi ilə insanpərvər xüsusiyyətlərini unutmuş, tərk etmiş, bunlara heç ehtiyac hiss etməyəcək qədər robotlaşmışdır. Bəziləri bu səviyyədə də qalmamış, hətta daha da irəli gedərək bəzi insanlıqdan kənar xüsusiyyətlər qazanmışdır. Məhz bu anlayış nəticəsində də qadına əziyyət verəcək, xor baxacaq qədər vicdanını itirmişdir.

Bu əxlaqi pozuntunun bircə açıqlaması var: Allah qorxusunun əskikliyi. Cəmiyyətə darvinist-materialist təhsil verilməsi, insanın da, əslində, digər heyvanlardan fərqi olmadığı, güclünün qalib gələcəyi dünyada zəifləri əzərək həyat uğrunda mübarizə aparmaq inancı insanları bu hala salmışdır. Eqoistlik, mənəviyyatsızlıq, vicdansızlıq məhz bu təhsilin nəticəsidir.

Bunun əvəzinə həmin insanlara dünyadakı əməllərindən məsul olacağı, hər saniyə etdiyi rəftarın əvəzini axirətdə alacağı öyrədilsə, əlbəttə, bu insanlar Allah'dan qorxaraq ağıllarını, iradələrini yaxşılıq etmək üçün işlədər, vicdanlı olmağı öyrənərlər. Onda təkcə qadınlarla deyil, uşaqlarla, yaşlılarla, zəiflərlə, ehtiyac içində olanlarla, yetimlərlə, evsizlərlə, hüquqları tapdalanan məzlumlarla da gözəl davranarlar. Sevib-sevilməkdən, dostluqdan, yoldaşlıqdan, fədakarlıqdan zövq alarlar. İnsanlara məcbur olduqlarına görə deyil, Allah'dan qorxduqlarına görə dəyər verərlər. İnsanları incitməkdən hər vəchlə çəkinər, ağılla, vicdanla davranıb ətrafdakı insanlarla gözəl rəftar edərlər. Allah Quranda Allah qorxusu ilə davranmağın xeyirli olduğunu belə xatırlatmışdır:

**Binasını Allah qorxusu və (Onun) rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

**Ey iman gətirənlər! Allah'dan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allah'dan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır. (Həşr surəsi, 18)**

## *Qadın yoxsa kişi üstündür?*

Bu sualın cavabı sualın məqsədinə, millətə, adət-ənənələrə, təhsilə, ictimai



quruluşa, inanclara görə fərqlənir. Bəzi xalqlarda qadın kölədir, kişi onun üzərində hakimdir. Bəzi batil dinlərdə ər öldükdə qadın da onunla birlikdə diri-diri yandırılır. Bəzi inanclara görə, qadın kəmağıldır, o bir şey dedikdə dediyinin tam tərsi edilməlidir. Bu misalları artıra bilərik, ancaq təbii ki, bu sualın əsl cavabını Qurani-kərimdə Rəbbimiz vermişdir. Qadına layiq olduğu dəyəri verən sistem İslam dinidir.

Bu günə qədər İslam xüsusilə xurafatçılar tərəfindən yanlış təqdim edilib. İnsanlar bu yanlış təqdimata görə dinin azadlıqlarını məhdudlaşdıracağını düşünürdülər. Cəmiyyət gənc, müasir, mədəni, varlı, yaraşıqlı, gözəl insanların deyil, kasıb, bayağı, təhsilsiz adamların din əxlaqı ilə yaşayacağı qənaətinə gəlmişdi. Əslində, bunun səbəbi bu düşüncəyə malik insanların İslamı əsl mənbəyindən, yəni Qurani-kərimdən öyrənməməsi idi. Allah insanlardan ancaq Quran əsaslı din əxlaqı ilə yaşamalarını istəyir.



Bu əxlaq anlayışına görə, qadın və kişi bərabərdir. Hər ikisinin vəzifələri eynidir. Allah'ın dini ilə yaşamaq və hər yerdə İslam dinini təbliğ etmək bütün müsəlmanların ən əsas vəzifələrindəndir.

Allah Quranda Onun rizasını qazanmaq üçün görülən işləri saleh əməl adlandırır. Allah'ın rizasını qazanmaq üçün saleh işlər görən qadın və ya kişi fərqlənmir. Hər ikisi müsəlmandır.

"Nisa" surəsinin 124-cü ayəsində Allah: **"Mömin olmaqla bərabər, yaxşı işlər görən kişilər və qadınlar cənnətə daxil olarlar. Onlara xurma çəyirdəyi qədər haqsızlıq edilməz!"** - buyurur. Yəni Qurana əsasən, bir insanın kişi və ya qadın olması deyil, Allah dərgahında necə müsəlman olması əsasdır.

Yaşadığımız axırzamanda artıq insanların birtərəfli yönləndirilməsi, məlumat əldə etmələrinin qarşısının alınması, müəyyən qəliblərə salınması mümkün deyil. Bir düymə ilə hər kəs internet vasitəsilə istədiyi məlumatı əldə edə bilir. Artıq insanları din adı altında xurafatla aldatmaq mümkün deyil. İnsanlar hər yerdən Quran əldə edə bilirlər. Qadına kəmağıl deyib 99%-nin cəhənnəmlik olduğunu iddia etsələr də, donuzla, eşşəklə, şeytanla bərabər tutub alçaltsalar da, artıq insanların şüuru buna inanmayacaq qədər açıqdır.

İslam azadlıqdır, gözəl əxlaqdır, əsl sevinc və xoşbəxtliyin mənbəyidir, sülhdür, qəlblərə şəfa mənbəyidir

və ən əsası, yeganə Dostumuzun və Himayədarımızın sözüdür.

Müsəlman Rəbbimizin bu sözünü oxuduqdan sonra həyata keçirər və məhz onda onun üçün gənc-yaşlı, qadın-kişi, kasıb-varlı, gözəl-çirkin, ağ-qara fərqi qalmaz. Müsəlman olması, Allah'a boyun əymiş, səmimi qəlbdən ixlasla Rəbbinə yönəlmiş müxlis qul olması onun üçün yeganə həqiqətdir.

Bu cür din əxlaqı ilə yaşayan insan ədalətli, anlayışlı, etibarlı, doğru danışan, sadiq və vəfalı olduğuna görə, hamı onunla yaxın olmaq istəyər. Hansı dinə mənsub olsa da, hətta ateist belə olsa, belə əxlaqa malik insanın formalaşdırdığı təhlükəsiz, rahat mühitdə yaşamaq istəyər.

Allah'ın bu cür gözəl əxlaqla yaşayan müsəlmanlara bəxş etdiyi ağıl isə təqlid edilməzdir. Bir insanın xarici görünüşü nə qədər mükəmməl olsa da, Quran əxlaqı ilə yaşamırsa, ətrafına təsiri olmaz. Ancaq ağıllı, tutarlı davranışları olan, hər qərarında ağıl işlədən müsəlman hər kəsin etibarını qazanar. Məhz burada qadın-kişi fərqi olmadan idarəçi vəsfi də qazanar. Bu xüsusiyyətlərə malik müsəlman qadın və kişinin ağlına, vicdanına və fikirlərinə bütün insanlar hörmət edərlər.

Müsəlman həm də cəsurdur. Allah'a təvəkküldən qaynaqlanan etibarlı şəxsiyyəti var. Hisslərinin əsiri olmadığına görə, qəti və ağıllı qərarlar verir. Bu da səhv etməsinin qarşısını alır. Allah qorxusu vicdanının səsini gücləndirir və Allah'a olan coşqun sevgisinə görə, Allah'ın təcəllilərinə də şəfqət və mərhəmətlə yanaşır, güclü himayədarlıq hissinə malik olur.

Bu əxlaqla yaşayan müsəlmanın məqsədi ancaq Allah'ın ondan razı qalmasıdır. İnsanların razılığı üçün yaşamadığına görə, özünün və yaxınlarının əleyhinə olsa da, həmişə ədalətlə davranar.

"Nisa" surəsinin 135-ci ayəsində "Ey iman gətirənlər! Özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. Varlı və ya kasıb olmasından asılı olmayaraq, Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! Əgər siz danışsanız və ya (həqiqəti deməkdən) boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır".

Nəticə etibarilə, Quran əxlaqına əsasən, bir insanın qadın və ya kişi olması deyil, əməlisaleh müsəlman olması əsasdır. Allah hər kəsə hidayət versin və son nəfəsimizə qədər bizi müsəlman kimi yaşatsın.



Düşünən İnsan, Mart 2013



# İNCƏSƏNƏT VƏ ELM CƏHƏTDƏN İNKİŞAF ETMİŞ MÖHTƏŞƏM SİVİLİZASİYA: QƏDİM MİSİR

Qədim Misir insanın minilliklər əvvəl qurduğu incəsənət və elm cəhətdən ən heyranedici sivilizasiyalarından biridir. Qədim misirlilər ibtidai cəmiyyətin davamçısı olmayacaq qədər dərin təcrübə və biliyə malik idilər. Batil bütpərəst dinə mənsub olan misirlilər arasında hz. Nuh, hz. İbrahim dövründən qalan incəsənət biliyinə malik ustalar vardı. Bu yəhudi ustalar keçmiş peyğəmbərlərin dövründən öyrəndikləri bilikləri tətbiq edirdilər.

Dövrümüzdə dünyanın bir çox ölkəsi misirlilərin mədəniyyət səviyyəsinə çata bilməyib. Bu gün Afrikanın müxtəlif bölgələrində, Cənubi Amerikanın bəzi yerlərində, Asiya torpaqlarında, Misir də daxil olmaqla, bir çox ölkədə keçmişdəki sivilizasiya səviyyəsindən çox geri qalmış həyat tərzi hökm sürür. Tibb, anatomiya başda olmaqla, şəhər planlaşdırma, memarlıq, incəsənət, toxuculuq kimi sahələrdə çox irəliləmiş Misir sivilizasiyası bu gün böyük təqdir və heyrətlə elm adamları tərəfindən tədqiq olunur.

## Tibbin mənşəyi qədim Misirdə

Qədim Misirdə tibbin çatdığı inkişaf səviyyəsi çox təəccüblüdür. Qazıntılarda əldə edilmiş tapıntılar arxeoloqlarla yanaşı, bir çox tarixçini də heyrətə salmışdır. Çünki heç bir tarixçi e.ə. 3000-cü ildə yaşamış qədim sivilizasiyadan bu cür inkişaf etmiş texnologiya gözləmirdi. Bu gün rentgen şüaları vasitəsilə mumiyalar üzərində aparılan təhlillər nəticəsində qədim Misirdə beyin əməliyyatlarının aparıldığı üzə çıxmışdır. Üstəlik, bu əməliyyatlar olduqca peşəkar metodlarla həyata keçirilmişdir. Cərrahiyyə əməliyyatı aparılmış mumiyaların kəllə sümüyünü tədqiq etdikdə əməliyyat yerlərinin düzgün kəsildiyi görülüb. Hətta bu insanların əməliyyatdan sonra həyatda qaldıqlarını sübut edən bitişmiş kəllə sümüklərinə rast gəlinmişdir.

Digər nümunə isə bəzi dərmanlarla bağlıdır. XIX əsrdə çox sürətlə irəliləyən praktiki elm nəticəsində tibb sahəsində də böyük nailiyyətlər qazanılıb. Antibiotikin kəşfi bunlardan biridir. Əslində, bunlara "kəşf edilib" demək səhv olar, çünki bu metodların böyük əksəriyyətindən qədim Misirdə istifadə edilirdi.

Misirlilərin tibb və anatomiya sahəsində nə qədər inkişaf etdiklərini göstərən ən mühüm izlərdən biri də, şübhəsiz ki, o dövrdən qalan mumiyalardır. Misirlilər mumiyalama işində yüzlərlə müxtəlif metoddan istifadə ediblər.



Cansız bədənin min illərlə xarab olmadan qorunmasına imkan verən mumiyalama, əslində, çox mürəkkəb prosesdir. Misirlilər ölüləri belə mumiyalayırdılar: əvvəlcə, ölünün daxili orqanlarını çıxarır, burundan beyin çəkilir, bədən sterlizə edilir və natron adlanan maddəyə bükülüb 40 gün saxlanırdı (natron natrium karbonat, natrium bikarbonat və natrium xloridlə natrium sulfatın qarışığından ibarət maddədir). Daha sonra bu maddə bədəndən çıxarılır, qol və ayaqlar palçıq və ya qumla, sonra bədən qatrana batırılmış kətanla, qoxulu sarı saqqız və darçınla sarınırdı. Bir cür məlhəmin bədənə çəkilməsindən sonra incə kətan tülə bükülürdü.

Misirlilər mumiyalama metodlarını təkcə insanlarda deyil, müxtəlif heyvanlar üzərində də sınayıblar. Qədim Misirdə tibbin çox inkişaf etdiyi əldə edilən arxeoloji tapıntılardan və xüsusilə mumiyalama metodlarından məlum olur. Bundan əlavə, unutmaq olmaz ki, bədənin formasını pozmadan, ölünün bütün daxili orqanlarını çıxararaq mumiyalamaları bu işi edən insanların hər orqanın yerini biləcək qədər anatomiya biliyi olduğunu göstərir.

Mumiyalamadan başqa misirlilərin 5000 il əvvəl istifadə etdiyi bir çox tibbi alət də arxeoloji qazıntılarda gün işığına çıxmışdır. Bu mövzu ilə bağlı təfərrüatları belə sadalamaq olar:

- Misirdə tibblə məşğul olan rahiblər məbədlərdə müxtəlif xəstəlikləri müalicə edirdilər. Misirli həkimlər dövrümüzdəki kimi müxtəlif sahələrdə ixtisaslaşmışdılar. Hər həkimin öz sahəsi vardı. Göz həkimlərindən diş həkimlərinə qədər hər sahədə mütəxəssis həkimlər xidmət göstərirdi.
- Misirdə həkimlər dövlətin nəzarətində idilər. Xəstə sağalmadıqda və ya öldükdə, dövlət bu səhvin səbəblərini soruşur və həkimin istifadə etdiyi metodun qayda-qanunlara uyğun olub-olmadığını araşdırırdı. Müalicə əsnasında etinasızlıq edilmişdirsə, bu müəyyən edilir və həkimə qanunlar çərçivəsində cəza verilirdi.
- Məbədlərin hər birində dərmanların hazırlandığı və saxlandığı tam təchizatlı laboratoriya vardı.
- Arxeoloji tapıntılarda Misirdəki tibbi əməliyyatların hamısına aid hərtərəfli məlumat əldə edilmişdir. Bununla yanaşı, hər biri öz sahəsində ixtisaslaşmış 100-dən çox həkimin adı və ünvanı da tapılmışdır.
- Habelə, Kom Ombodakı başqa məbədin divarındakı relyeflərdə cərrahiyyə aləti qutusunun rəsmi çəkilmişdir. Bu qutuda böyük metal qayçı, cərrahiyyə bıçaqları, mişarlar, zondlar, tibbi qaşıqlar, kiçik qarmaqlar və kəlbətinlər var.
- Çoxsaylı müxtəlif metodlar vardı. Sınıqlar, çatlar tam bitişdirilir, sınıq taxtalarından istifadə edilir və yaralar tikişlə bitişdirilirdi. Mumiyaların çoxunda məharətlə müalicə edilmiş sınıq izlərinə rast gəlmək mümkündür.

Göründüyü kimi, Misir sivilizasiyası tibb sahəsində çox mühüm addımlar atmış, müalicə metodları formalaşdırmış, mütəxəssis həkimlər yetişdirmişdir. Aparılan qazıntılarda tibb sahəsində əldə edilən bu mühüm nailiyyətlərlə yanaşı, misirlilərin şəhər planlaşdırma və memarlıq kimi sahələrlə də məşğul olduqları üzə çıxmışdır.

# AĞIL DOĞRU DÜŞÜNMƏYƏ SƏBƏB OLUR

- **Ağıllı insan necə düşünür?**
- **Ağıllı olmaq üçün nə etmək lazımdır?**
- **Zəka ağıllı olmaq üçün niyə kifayət etmir?**

Düşünmək insanın ən əsas xüsusiyyətlərindən biridir. Ancaq bir çox insan bu xüsusiyyətini, həqiqətən, hikmətli və faydalı mövzuya sərf etmək əvəzinə özünə və ətrafına heç bir fayda verməyən məsələlərdə istifadə edir. Bəzən saatlarla, hətta günlərlə düşünür, ancaq sərf etdiyi uzun vaxtdan sonra ortaya heç bir nəticə çıxara bilmir. Halbuki, bir insan faydalı işlər düşündüyünü iddia etməsi üçün gördüyü, eşitdiyi, qavradığı və ya fikrindən keçirdiyi məlumatları faydalı nəticələndirməlidir.



Ağıllı olan insanların fərqi burada özünü göstərir. Ağıllı insan ancaq düşünmək üçün deyil, nəticə çıxarmaq, fayda vermək, doğrunu tapmaq və gözəl şeylər hasil etmək üçün düşünür. Düşünəcəyi mövzuları isə ağlı ilə müəyyənləşdirir. Əsla vaxt itkisinə səbəb olan, nəticə verməyən mövzulara dalıb ağlını boş şeylərlə məşğul etməz. Məsələn, boş şübhələrə qapılmaz, şeytanın vəsvəsələrini dinləməz, gələcəyə aid narahat düşüncələrlə vaxtını itirməz.

## Ağıllı insan dünyaya bağlanmaz

Allah yer üzünü insanların xoşuna gələn bir çox nemətlə bəzəmişdir. Bu nemətlərdən istədikləri kimi istifadə etməkdə sərbəst olduqlarını bildirmişdir. Ancaq bununla yanaşı, bu nemətlər üçün şükür etmələrini və dünyəvi həvəslərlə axirəti unutmamalarını da xatırlatmışdır. Çünki insanların dünyada yaşadıqları həyat əsl həyatları deyil. İnsanların əsl həyatı ölümlə başlayan və əbədiyyən davam edən axirət həyatıdır.





Ona görə, axirəti unudub 50-60 illik dünya həyatına bağlanmaq böyük qəflətdir. Axirəti unudan insanlar həm dünyadakı bir çox gözəllikdən, həm də axirət nemətlərindən məhrum olurlar. Dünyaya bağlanan insanlar əsl yaradılış məqsədlərini, Allah qarşısındakı vəzifələrini, ölümü və ölümdən sonrakı həyatı lazımınca dəyərləndirmir və doğru düşünə bilmirlər. Bu, onların çox yanıldığını göstərir, lakin bu insanlar, əslində, yaxşı işlər gördüklərini zənn edirlər.



Bəzi insanlar yanılaraq pul, mal-mülk kimi dəyərlərin, gözəlliyin, şan-şöhrət və etibarın, geridə qalanlara mal və ad-san qoyub getməyin həyatın əsl məqsədi olduğunu düşünərək bütün ömürlərini boş yerə sərf edirlər. İllərlə cəmiyyətin gözündə yaxşı mövqe tutmağın, insanların razılığını qazanmağın yollarını axtarır, ancaq bir an belə onları yaradıb həyat verən, tükənməz ruzi və nemət bəxş edən, hər işlərində onlara kömək edən Rəbbimizə şükür etməli olduqlarını düşünmürlər. Günlərini hamıdan daha varlı olmaq üçün dincəlmədən işləyərək, yeni layihələrin arxasınca qaçaraq keçirir, ancaq bu zənginliyi onlara verənin Allah olduğunu düşünüb Ona qulluq vəzifələrini yerinə yetirməyə vaxt ayırmırlar.

Bu yanlış seçim nəticəsində dünyada insana verilən ən böyük nemətlərdən biri olan ağıldan məhrum olurlar. Bu ağılsızlıqla haqq yoldan azır və axirətdə cənnəti itirib cəhənnəmlə qarşılaşırlar. Allah Quranda dünya həyatına aldananların vəziyyətini belə bildirmişdir:

***O kəslər ki, dinlərini oyun-oyuncaq etmiş və dünya həyatı onları aldatmışdı. Onlar bu günə qovuşacaqlarını unutduqları və ayələrimizi inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq! (Əraf surəsi, 51)***

***... Yoxsa axirətdən vaz keçib dünya həyatına razı oldunuz? Halbuki, dünya malı axirət yanında yalnız cüzi bir şeydir! (Tövbə surəsi, 38)***

***... Onlar dünya həyatı ilə sevinirlər. Halbuki, dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür. (Rəd surəsi, 26)***

İnsanlar həlaka aparan bu ağılsızlıqdan asanlıqla xilas ola bilərlər. Dünya həyatında qarşılaşdıqları hər nemətin Allah'ın bir lütfü kimi onlara verildiyini bilsələr və həyatlarının əsl məqsədinin Allah'ın rizasını qazanmaq olduğunu unutmasalar, Allah'ın izni ilə, ağıllarının qarşısını kəsən maneələr də aradan qalxar. Allah səmimi qullarına belə vəd verir:

*Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.* (Nəhl surəsi, 97)

## Quranı çox yaxşı anlayan insan ağıllı olmağın bütün sirlərini tapar

İnsan Qurandan faydalanmaq, Quranın rəhbərliyi ilə hidayət tapmaq və şüurunu açmaq üçün Quranı layiqincə oxumalıdır. Bir ayədə Allah belə buyurur:

*Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar. Onlar ona iman gətirənlərdir. Onu inkar edənlər isə ziyana uğrayanlardır.* (Bəqərə surəsi, 121)

Quranı layiqincə oxumaq isə səmimi şəkildə, Allah'dan qorxub-çəkinərək və ayələrə möhkəm sarılaraq olar. Quran ayələrini yuxarıdakı ayədə tərif edildiyi kimi layiqincə oxuyanlar Quranda yazılan hər hökmə təslim olur, Allah'ın əmr və tövsiyələrini dəqiqliklə yerinə yetirməyə qəti qərar verirlər.

Quranda Allah insanları müəyyən mövzular üzərində düşünməyə təşviq edir. Bu mövzulardan ən başlıcası isə özü də daxil olmaqla, tanıdığı, gördüyü, bildiyi hər şeyi yaradan Allah'ın böyüklüyünü düşünməkdir. Ağıllı insan həyatının hər anında Allah'ın zaman və məkandan asılı olmadığını, varlığının hər şeyi əhatə etdiyini, bütün varlıqların Ona möhtac olduğunu, Onun isə heç nəyə ehtiyacı olmadığını, kainatın hakimi və sahibi olduğunu, hər an, hər saniyə bütün insanlara nəzarət etdiyini, onların fikrindən keçən və ya dedikləri hər sözü bildiyini, etdikləri hər hərəkəti gördüyünü, əzəli və əbədi biliyin Onun dərgahında olduğunu yadından çıxartmaz.

İnsanın qəlbini və ağlını örtən şeylər eqoist istəklərdir. Gələcək qorxusu, kasıblaşmaq, əlində olan hər şeyi itirmək, xəstələnmək qorxusu və buna bənzər qorxular, dünyəvi istəklər insanın ağlını örtür. İnsan bu duyğuların əsiri olur və ağlını yönəltməli olduğu əsl mövzuları görmür. Halbuki, insan ən çox Allah'ın böyüklüyü və yaratmasının mükəmməlliyi üzərində düşünməlidir. İnsan Allah'ın nemətlərini anmaq, Onu tərif edib şanını ucaltmaq və Ona ibadət etməklə məsuldur. Ancaq örtülü şüurla bunları edə bilməz.

Ağıl sahibləri Allah'ı tanıyan və Ona itaət edən, yəni dünyəvi istəklərdən, qorxulardan təmizlənmiş şəxslərdir. Eyni zamanda, öyüd-nəsihət qəbul edən insanlardır. Ona görə, Allah onları "O kəslər

ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar..." (Zumər surəsi, 18) ayəsi ilə tərif edir.

## Allah qorxusu ağılın mənbəyidir. Bir insan çox zəkalı ola bilər, ancaq Allah qorxusu olmadıqda ağılsız olar

Ağıllı insan ən çox Allah'ın sevgisini və rizasını necə qazanmağı düşünür. Çünki bu insan dünyadakı hər kəsdən və hər şeydən çox onu yaradan Allah qarşısında məsul olduğunu bilir. Yaşadığı hər an, qarşılaşdığı hər hadisədə onu Allah'a yaxınlaşdıran ən gözəl davranışın nə olduğunu düşünər. Ağlını daima xeyirli işlər görmək üçün işlədər, ətrafındakı insanlarla gözəl rəftar etməyə, ən gözəl sözü söyləməyə və Allah'ın istədiyi kimi ən gözəl əxlaqla yaşamağa cəhd göstərər. Quranda bildirilən əmr və qadağalara dəqiqliklə əməl edərək Allah'ın ən çox sevdiyi qullarından olmaq üçün əlindən gələni edər. Quranda ağılla düşünən bu insanların Rəbbimizin böyüklüyünü qavrayaraq ən doğru yolu tapdıqları belə xəbər verilmişdir:

***O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah'ı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından qoru! (Ali-İmran surəsi, 191)***

***Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-biri ilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə dənizdə üzən gəmilərdə, Allah'ın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, bütün heyvanatı (yer üzünə) yaymasında, küləklərin (istiqamətinin) dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır. (Bəqərə surəsi, 164)***

Bu cür faydalı mövzular üzərində düşünmək insanın ağlının daha da artmasına və beləliklə, çox doğru davranmasına səbəb olur. Ağılla hərəkət edən insan dünyada və axirətdə böyük qazanc əldə etdiyi kimi, ətrafındakı insanları da həmişə doğru olanı etməyə təşviq edir.

Quranda nəzərdə tutulan ağıl mənəvi xüsusiyyətdir. Quranda bir çox ayədə "başa düşən qəlblərdən" bəhs edilir. Ona görə, əsl ağıl beyinin bir funksiyası olan zəkadan çox fərqlidir. Ağıl və vicdan qəlbdə olur. Quran ayələrində ağılın qəlbdə olduğu və ağılsızların qəlbləri kor olduğuna görə anlamadıqları açıq-aşkar ifadə edilir.





Ayədə belə buyurulur:

*Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri, eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər kor olar. (Həcc surəsi, 46)*

## Cənab Adnan Oktar ağıllı insanın Allah'ı inkar etməyəcəyindən bəhs edir

ADNAN OKTAR: *Zəkalı, ağıllı insan necə Allah'ı inkar edə bilər? Beyninin içində üç ölçülü parlaq dünya görür. Ən keyfiyyətli stereo sistemdən də üstün səs eşidir və normal ağıla malikdir. Bu təqdirdə, nə deməlidir? Məsələn, Allah beynində qədəh yaradır. Ağıllı adam nə deyər? "Allah yaratdı", - deyər. Biz qədəhi soruşduqda fabrikdə istehsal olunduğunu deyirlər. Beyninin içində kim yaradır? Allah yaradır. Fabriki bir kənara qoy, sən fabriki görə bilməzsən. Fabrikdəki ilə əlaqən yoxdur. Onu da Allah yaradır. Ancaq sən onun görüntüsü ilə təmasda olursan.*

*Beynində gördüyün stəkan var, birbaşa Allah tərəfindən yaradılır. Xarici aləmdəki stəkana heç ehtiyac yoxdur. Elə bilir ki, xarici aləmdə stəkan olmasa, beynindəki yaradıla bilməz. Xarici aləmdəki stəkanla beynindəki stəkan ayrı-ayrı yaradılır. İki yaratma var. "O iki şərqin də Rəbbidir"- Quranda Allah iki aləmdən bəhs edir. Beyindəki stəkanın xarici aləmdəkindən ayrı yaradıldığını bilmirlər, ondan asılı olaraq yaradıldığını zənn edirlər. Halbuki, ikisi də ayrıdır.* (7 yanvar 2012-ci il, A9 TV)

## Cənab Adnan Oktar: Quranı çox yaxşı anlayan insan ağıllı olmağın bütün sirlərini tapar

ADNAN OKTAR: *Qurana baxdıqda insanların zəif cəhətləri, hiylələri, adamlıq dininə mənsub hərəkətlər, insanları aldatma metodları, münafiqlərin saxtakarlıqları, insanlara necə yanaşdığı, ruhi vəziyyətləri, psixologiyaları, hətta bədənlərindəki fiziki təsiri - əxlaqsızlıq, vicdansızlıq etdikdə bədənlərində baş verən fizioloji dəyişikliklər Quranda mükəmməl psixiatriya kitabı kimi ruhi pozuntu şəklində izah edilir. İnsanların mənfi xarakterləri hərtərəfli bildirilir. Ona görə, Quranı çox yaxşı anlayan insan çox ağıllı olur. Ağılın, ağıllı olmağın bütün sirlərini görür. Başqa yolla insanın ağlı qavraya bilməz, zəkalı ola bilər, ancaq qavraya bilməz. Quranı çox yaxşı anlayan insan ağılı təfərrüatı ilə qavrayır və həyatına tətbiq edir.* (20 aprel 2011-ci il, A9 TV, TV Kayseri və Samsun AKS TV proqramından)



# Təbii təmizləyici: lotus bitkisi



*Lotus bitkisi (ağ su zanbağı) palçıqlı və çirkli mühitlərdə bitir. Buna baxmayaraq, bitkinin yarpaqları həmişə təmiz olur. Çünki bitki üzərinə çox cuzi toz dənəsi belə düşən kimi dərhal yarpaqlarını yelləyir və toz zərrəciklərini müəyyən məsafəyə doğru itələyir. Yarpağın üzərinə düşən yağış damcıları da bu nöqtələrə doğru yönləndirilir və buradakı tozları yuyub aparır.*

*Lotus bitkisinin bu xüsusiyyəti bina səthinin dizaynı üçün araşdırmaçılara yeni üfüq açıb. Bundan ilham alan tədqiqatçılar Lotusun yarpağı kimi, yağış sularını istifadə edərək üzərindəki çirki təmizləyən bina səthləri üzərində işə başlayıblar. Bu işlərin nəticəsində ISPO adlı bir alman şirkəti "Lotusan" adı verilən səthörtmə maddəsini istehsal ediblər. Asiya və Avropadakı satış nöqtələrindən bazara təqdim edilən bu məhsul üçün "yuyucuya ehtiyac olmadan 5 il ərzində özünü təmiz saxlayacağı zəmanəti" belə verilib.*

*Təbiətdəki bir çox canlı səthlərini qoruyan müxtəlif xüsusiyyətlərə malikdir.*

*Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər?*
*(Ənbiya surəsi, 30)*

# ALOVDAKI DİZAYN

Canlılara enerji təmin edən ən fundamental reaksiya karbon və hidrogen birləşmələrinin oksidləşməsi, yəni yanmasıdır. Ancaq bu məqamda maraqlı bir sual yarana bilər: bizim bədənimiz, əsasən, karbon və hidrogen birləşmələrindən meydana gəlir. Bəs necə olur ki, bədənimiz oksidləşmir? Ya da niyə bədənimiz bir anda kibrit dənəsi kimi alovlanıb yanmır?

**Bədənimizin oksigenlə təmasda olduğu halda, yanmaması, həqiqətən, heyrətləndirici bir vəziyyətdir.**

19-cu əsrdən bəri maraq doğuran bu sualın cavabı son yarım əsrdəki yeniliklər nəticəsində aydın olmuşdur. Biokimyəvi müşahidələr insan bədənindəki bəzi xüsusi fermentlərin yalnız oksigenin atmosferdə tapılan forması olan $O_2$ ilə reaksiyaya girdiyini ortaya qoymuşdur. Hüceyrələrimizdəki bu xüsusi fermentlər, çox kompleks proseslər nəticəsində bədənimizdəki dəmir və mis atomlarını katalizator (sürətləndirici) olaraq istifadə edir və beləcə, oksigeni reaktiv hala gətirirlər.

Ortada çox maraqlı bir vəziyyət var: oksigen yandırıcı bir elementdir və normal halda, bizim bədənimizi də yandırmalıdır. Buna mane olmaq üçün oksigenin atmosferdəki forması olan $O_2$ isə asanlıqla reaksiyaya girmir. Amma bədənimizin enerji əldə etməsi üçün oksigenin yandırıcılığına ehtiyacı var. Onun üçün hüceyrələrimizin içinə bu sadə qazı reaktiv hala gətirən kompleks bir ferment sistemi yerləşdirilmişdir.

Həmçinin onu da bildirmək lazımdır ki, həmin ferment sistemi, canlı aləmin təsadüflərlə meydana gəldiyini iddia edən təkamül nəzəriyyəsinin əsla açıqlaya bilmədiyi bir dizayn möcüzəsidir. Bədənimizin qəfil alovlanmasına mane olmaq üçün alınmış başqa bir tədbir də var. Bu, ingilis kimyaçısı Nevil Sicvikin ifadəsi ilə desək, karbonun xarakterik xüsusiyyətidir. Başqa bir ifadə ilə desək, karbon

atomu normal temperaturda asanlıqla oksigenlə reaksiyaya girmir.

Kimyəvi dillə ifadə edilən bu xüsusiyyəti, əslində, hamımız gündəlik həyatda çox yaxından yaşamışıq. Soyuq havada odun və ya kömür yandırmağa çalışdıqda yaşadığımız çətinlik karbonun həmin xarakterik xüsusiyyətidir. Odu alovlandıra bilmək üçün odunun və ya kömürün temperaturunu yüksəltməyimiz gərəkir.

Amma od bir dəfə alovlandıqdan sonra karbon sürətlə reaksiyaya girir və böyük bir enerji ortaya çıxır. Buna görə, bir yanğını başlatmaq (kibrit və s. kimi xüsusi atəş qaynaqları olmadıqca) çox çətindir. Amma yanğın bir dəfə başladıqdan sonra çox böyük istilik meydana gəlir və bu istilik ətrafdakı digər karbon birləşmələrini də alovlandırır.

Bu vəziyyət araşdırıldıqda alovda çox təsir edici bir dizaynın olduğu aşkarlanır. Oksigenin və karbonun kimyəvi xüsusiyyətləri elə nizamlanmışdır ki, bunlar yalnız çox yüksək temperaturda reaksiyaya girib atəş meydana gətirirlər. Əgər belə o lmasaydı, Yer üzərində həyat qeyri-mümkün hala gələrdi. Əgər oksigenin və karbonun reaksiyaya girmə meyilləri bir az daha çox olsaydı, havanın temperaturu bir az artdıqda insanların, ağacların, heyvanların bir anda alovlanıb yanmaları normal olardı. Məsələn, çöldə yeriyən bir insan günorta vaxtı temperatur ən yüksək dərəcəyə qalxdığı zaman bir anda alovlana bilərdi. Bitkilər və heyvanlar da eyni təhlükə ilə üzləşərdilər. Əlbəttə ki, belə bir dünyada həyatdan danışmaq bir az çətin olardı. Əgər oksigenin və karbonun xarakterik xüsusiyyətləri daha çox olsaydı, bu dəfə də dünyada od yandırmaq çox çətin, bəlkə də qeyri-mümkün hala gələrdi. Odun olmadığı bir mühitdə isə insanların isinməsi və texnologiyanı inkişaf etdirməsi mümkün ola bilməzdi. Çünki məlum olduğu kimi, texnologiya metallara əsaslanır və metallar da ancaq çox yüksək temperaturda yumşalıb formaya salına bilirlər.

Qısacası, karbon da, oksigen də bizim həyatımız üçün ən uyğun şəkildə yaradılmışdır. Bu iki elementin xüsusiyyətləri bizə od yandıra bilmək və bu odu ən uyğun şəkildə istifadə etmək imkanı verir. Bundan əlavə, dünyanın hər tərəfi çox bol miqdarda karbon tərkibli, başqa sözlə, od yandırmaq üçün asanlıqla istifadə edə bildiyimiz ağaclarla doludur. Bütün bunların insan həyatına ən uyğun şəkildə yaradıldığı görünür. Belə ki, Allah insanlara Quranda belə buyurur:

**"O sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız". (Yasin surəsi, 80)**

# Müsəlmanlar və Kitab əhli dəccaliyyətə qarşı bir-birlərinin müttəfiqidir



Şübhəsiz ki, dünyanın sülhə, dostluğa və qardaşlığa bəlkə də ən çox ehtiyacı olduğu dövrlərdən birində yaşayırıq. XX əsrə damğasını vuran qarşıdurma və müharibələr XXI əsrdə də davam edir, dünyanın hər tərəfində məsum insanlar bu müharibələrdə böyük maddi və mənəvi itkiyə məruz qalırlar. Ancaq bəzi kütlələr israrla müsəlmanlar və kitab əhli arasındakı qarşıdurmanı körükləməyə çalışırlar. Halbuki, açıq-aşkar görünür ki, bu kütlələrin körüklədiyi sivilizasiya mübarizəsi bütün bəşəriyyəti böyük fəlakətə apara bilər. Bu fəlakətin qarşısının alınmasının ən əsas yollarından biri müsəlmanlar və kitab əhli arasındakı qardaşlıq və əməkdaşlığın gücləndirilməsidir.

Bu gün dünyada iki qütb var. Ancaq bu iki qütbün tərəfləri müsəlmanlar, yəhudilər və xristianlar deyil. Bu iki qütbün bir tərəfində Allah'ın varlığına və birliyinə iman gətirənlər, digər tərəfində isə inkarçılar, başqa sözlə, bir tərəfində din əxlaqının tərəfdarları, digər tərəfində də din əxlaqına qarşı olan ideologiyaların tərəfdarları dayanır.

Kitab əhlinin və müsəlmanların ortaq inanc əsasları, ortaq ibadətləri, əxlaqi dəyərləri, ortaq düşmənləri olduğu hər üç İlahi dinin müqəddəs kitablarında qeyd edilir. İnanclı, səmimi, vicdanlı xristianlar, yəhudilər və müsəlmanlar pisliklərə və pislərə



qarşı ortaq mübarizə aparmalı, bir-birinə kömək etməli, birlik və bərabərliklə çalışmalıdırlar. Bu birlik sevgi, hörmət, anlayış, həmrəylik və əməkdaşlıq prinsipləri əsas götürülərək qurulmalıdır. Vəziyyətin nə qədər təcili olduğu nəzərə alınmalı, çəkişmə, mübarizə və ayrılığa yol açacaq ünsürlərdən hər vəchlə çəkinilməlidir.

Keçmişdə bu dinlərin mənsubları arasında müxtəlif anlaşmazlıqlar ola bilər, bu, tarixi həqiqətdir. Ancaq bunlar xristianlıq, yəhudilik və İslamın özündən deyil, dövlətlərin, xalqların və fərdlərin yanlış qərar və düşüncələrindən, əsasən də iqtisadi və siyasi maraq və mənfəətdən qaynaqlanmışdır. Əslində, hər üç İlahi dinin ortaq məqsədlərindən biri bütün insanların sülh, əmin-amanlıq, təhlükəsizlik və xoşbəxtlik şəraitində yaşamasıdır və buna zidd qarşıdurma hər üç dinə əsasən, yanlışdır.

Dini və əxlaqi dəyərləri hədəfə almış güc mərkəzləri bütün imkanlarını birləşdirərək böyük ittifaq qurublar. Ancaq bu ittifaqı ideoloji cəhətdən məhv etmək bizim, yəni dindar insanların əlindədir. Dinsiz və materialist təlqinlərin mənfi, dağıdıcı təsirlərini birlik olub aradan qaldıra bilərik. Gözəl əxlaqın, əmin-amanlığın, təhlükəsizliyin və rifahın hakim olduğu cəmiyyət qura bilərik. Bunun yeganə yolu yer üzündəki üç İlahi dinin (İslam, yəhudilik, xristianlıq) bu ortaq məqsəd uğrunda birləşməsidir.

İnanclı, səmimi, vicdanlı xristianlar, yəhudilər və müsəlmanlar pisliklərə və pislərə qarşı birləşərək ortaq mübarizə aparmalı, yardımlaşmalıdırlar. Bu birlik sevgi, hörmət, anlayış, tolerantlıq, həmrəylik və əməkdaşlıq prinsipləri əsas götürülərək qurulmalıdır. Vəziyyətin nə qədər təcili olduğunu nəzərə almalı, qarşıdurma, mübahisə və



ayrılığa yol açacaq ünsürlərdən hər vəchlə çəkinmək lazımdır.

## Əhli-kitab və müsəlmanların ortaq düşməni dəccaldır

Xristianlıq, yəhudilik və İslamı dövrümüzdə yaxınlaşdıran əsas amil dəccalın insanları dinsiz fəlsəfi cərəyanlara təşviq etməsi və nəticə etibarilə meydana gələn fəlakətləri dəstəkləməsidir.

Dəccalın dəstəyi ilə dövrümüzün ən tanınan və ən çox zərər verən ideologiyalarına materializm, kommunizm, faşizm, anarxiya, irqi ayrı-seçkilik, nihilizm, ekzistensializm və ateizmi misal çəkə bilərik. Bunların kainat, cəmiyyət və insanla bağlı saxta fikirlərinə, aldadıcı tərif və təsvirlərinə aldanan bir çox insan imanını itirmiş və ya şübhəyə düşmüşdür. Habelə, bu ideologiyalar insanları və millətləri böyük böhranlara, qarşıdurmalara, müharibələrə sürükləmiş və dünyaya böyük fəlakətlər gətirmişdir. Bəşəriyyətin hələ də çəkdiyi əziyyət və sıxıntılarda bunların böyük payı var.

Sadaladığımız ideologiyalar Allah'ı və yaradılışı inkar edərkən ortaq təmələ, elmi düşüncə tərzi olduğu iddia edilən Darvinin təkamül nəzəriyyəsinə



əsaslanırlar. Darvinizm dinə zidd fəlsəfi cərəyanların əsasını təşkil edir. Bu nəzəriyyə canlıların təsadüfən, həyat uğrunda mübarizə yolu ilə təkamül keçirərək bir-birindən törədiyini iddia edir. Dəccal, yəni darvinizm insana kimsə qarşısında məsul olmadığını, təsadüfən əmələ gəldiyini, yaşamaq üçün mübarizə aparmalı olduğunu, lazım gələrsə, digərlərini əzməyi, dünyanın qarşıdurma və mənfəət yeri olduğunu təlqin edir. "Təbii seçmə", "həyat uğrunda mübarizə", "güclülərin həyatda qalması" kimi darvinist məfhumlar cəmiyyətə yalanlarla bu cür zərərli təlqinlər verirlər. Bu batil əxlaq anlayışı insanlara eqoist, mənfəətpərəst, zalım və mərhəmətsiz olmağı öyrədir, şəfqət, mərhəmət, fədakarlıq, təvazökarlıq kimi xüsusiyyətləri məhv edir, bunu həyatın qanunu adı altında doğru göstərir.

Bu darvinist təlqin, şübhəsiz ki, əhli-kitabın inanclarına və Qurana tamamilə ziddir. Ona görə, darvinist təlqin hər üç dinə zidd sistemin əsasını təşkil edir.

Allah'a inanan, Onun öyrətdiyi gözəl əxlaqı qəbul edən əhli-kitab və müsəlmanlar birləşərək fəaliyyət göstərməlidirlər. Hər üç dinin mənsubları müştərək şəkildə heç bir elmi əsası olmayan darvinizmin yanlışlığını bütün dünyaya çatdırmalıdırlar. İnancsızlıqdan qaynaqlanan bütün digər zərərli ideologiyalara (kommunizm, faşizm, irqi ayrı-seçkilik), əxlaqi degenerasiyaya qarşı da birləşib ideoloji mübarizə aparmalıdırlar. Bunu reallaşdırdıqda çox qısa zamanda sülh, əmin-amanlıq və ədalət bərqərar olar.

## Kitab əhli və müsəlmanlar dəccala qarşı ortaq sözdə birləşməlidirlər

Dinsiz, ateist, materialist ideologiyaların dünyanı bürüdüyü dövrdə dinlər arasındakı bənzərliklər ön plana çıxarılmalı, ortaq məqsədlər üçün əməkdaşlıq edilməlidir.
Allah Quranda müsəlmanlara əhli-kitabla bağlı əmr verir, onları ortaq sözdə birləşməyə çağırır:

**De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allah'dan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allah'ı qoyub bir-birimizi ilahiləşdirməyək..." (Ali-İmran surəsi, 64)**





Biz xristianları və yəhudiləri dəvət edirik: Allah'a iman gətirən və Onun vəhyinə itaət edən insanlar kimi, gəlin ortaq "iman" sözündə birləşək. Hamımız Yaradanımız və Rəbbimiz olan Allah'ı sevək. Onun əmr və qadağalarına riayət edək və uca Allah'ın bizi doğru yola daha da yaxınlaşdırması üçün dua edək.

Müsəlmanlar, xristianlar və yəhudilər bu şəkildə ortaq sözdə birləşdikdə, bir-birlərinin düşməni deyil, dostu olduqlarını anladıqda, əsl düşmənin ateizm və dinsizlik olduğunu gördükdə dünya dəyişəcək. Əsrlərdir davam edən qarşıdurmalar, düşmənçiliklər, qorxular, terror hadisələri sona çatacaq və ortaq söz üzərində sevgi, hörmət və sülhə əsaslanan yeni sivilizasiya qurulacaq.

## Allah Quran ayələrində yəhudi və xristianlar arasında Allah'a iman gətirənlərin olduğunu bildirmişdir

**Onların hamısı eyni deyil. Kitab əhli içərisində düzgün bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allah'ın ayələrini oxuyurlar. Onlar Allah'a, axirət gününə inanır, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. Onların yaxşılıq naminə etdikləri işlərdən heç biri inkar edilməz. Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır! (Ali-İmran surəsi, 113-115)**

**Həqiqətən, kitab əhli içərisində elələri də vardır ki, onlar Allah'a, həm sizə, həm də özlərinə nazil olanlara inanır, Allah'a boyun əyərək Allah'ın ayələrini ucuz qiymətə satmırlar. Onların Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəndir. (Ali-İmran surəsi, 199)**

**İman gətirənlərdən, musəvi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allah'a, axirət gününə inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 62)**





### Quranda iman gətirən kitab əhli ilə iman gətirməyənlər eyni tutulmur

Kitab əhlindən eləsi var ki, ona bir yığın (mal) əmanət etsən, onu sənə (tam) qaytarar. Onlardan eləsi də var ki, ona bir dinar versən belə, başının üstündə durub tələb etməyincə onu sənə qaytarmaz. Bu, ona görədir ki, onlar: "Avamlardan ötrü bizə günah olmaz!"– deyirlər və bilə-bilə Allah'a qarşı yalan söyləyirlər. (Ali-İmran surəsi, 75)

### Müsəlmanların kitab əhlinə dəvəti

Kitab əhlinin zülm edənləri istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! Və belə deyin: "Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana inanırıq. Bizim də Allah`ımız, sizin də Allah`ınız birdir. Biz yalnız ona təslim olanlarıq!" (Ənkəbut surəsi, 46)

Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! "Allah'dan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allah'ı qoyub bir-birimizi Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq!" (Ali-İmran surəsi, 64)

Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər! (Mumtəhənə surəsi, 8)

### Kitab əhlinin yeməyi müsəlmanlara halaldır, kitab əhlindən olan qadınlarla evlənmək olar

Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə halaldır. Möminlərin, həmçinin sizdən əvvəl Kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar! (Maidə surəsi, 5)

Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər. (Ənfal surəsi, 73)



# CANLI UÇUŞ MEXANİZMLƏRİ: İYNƏCƏLƏR

Quşlar insanın əsrlər boyu həyata keçirmək istədiyi işi bacarırlar: uçmağı…

İnsanlar uçmağın yollarını tapmaq üçün çox çalışıblar. İlk təyyarənin icadından bu günə qədər təqribən 100 il keçib. Minlərlə fərqli modeldə təyyarə istehsal edilib. On minlərlə elm adamı daha yaxşı uçan vasitələr düzəltmək üçün çalışıb.

Nəticədə, bu gün istifadə etdiyimiz mükəmməl uçuş vasitələri var.

Uçmaq böyük gücdür. Ancaq bu güc nə qədər tənzimlənərsə, o qədər təsirli olur. Lazım gəldikdə havada qalmaq, istənilən yerə eniş etmək də uçmaq qədər vacibdir. Məhz buna görə, insanlar manevr qabiliyyəti yüksək olan uçuş vasitəsi icad ediblər: helikopter…

Helikopter havada asılı dayana bilir. Dik vəziyyətdə enə və qalxa bilir.

Xüsusilə hərbi sahədəki üstünlüyünə görə helikopter dizaynı tədqiqatlarına böyük büdcələr ayrılır.

Ancaq aparılan son tədqiqatlar çox maraqlı faktı aşkar etmişdir. Dövrümüzdəki helikopterlərin uçuş texnologiyası çox kiçik və canlı mexanizmin uçuş texnologiyası ilə müqayisədə çox adidir.Bu canlı uçuş mexanizmi iynəcədir.

## İynəcənin uçuş mexanizmi

İynəcələrin uçuş sistemi əsl dizayn möcüzəsidir. İnsanların düzəltdiyi heç bir cihazın iynəcə qədər yüksək uçuş texnologiyası yoxdur.

Ona görə, dünyanın mükəmməl helikopteri Skorskinin son modeli iynəcə nümunə götürülərək dizayn edilmişdir.

Bu layihədə Skorskinin dizaynına kömək edən İBM firması iynəcənin şəklini bu iş üçün istehsal edilmiş xüsusi kompyuterə yükləmişdir.

Daha sonra iynəcənin havadakı manevrləri də nəzərə alınaraq kompyuterdə minlərlə sxem çəkilmişdir. Beləcə, iynəcənin uçuş texnikası nümunə götürülərək Skorski modeli icad edilmişdir.

Qısaca desək, kiçik həşəratın bədənində insanın bacarığından daha üstün dizayn var. Şübhəsiz ki, həşəratın orqanizmindəki bu heyrətamiz texnologiya onun yaradıldığını sübut edir. İynəcənin uçuş texnikası və qanadlarındakı dizayn insana açıq-aşkar həqiqəti göstərir: bu kiçik canlı bizə Allah'ın sənətini göstərən yaradılış möcüzəsidir.

İynəcənin gövdəsində çarpaz yerləşmiş iki cüt qanad var. Bu quruluşu ona çox sürətli manevr qabiliyyəti qazandırır.

İynəcə çox qısa müddətdə sürətini saatda 50 km-ə çatdırır. Bir həşəratın bu qədər yüksək sürətlə uçması çox təəccüblüdür. Olimpiadalarda 100 m qaçan idmançıların sürəti saatda 39 km-dir.

Yaxşı uçmağın digər şərti isə iti görmədir. Əgər mükəmməl görmə sistemi olmasa, uçmaq çox təhlükəlidir. Ona görə, müasir təyyarə və helikopterlərin üstün görmə sistemləri var. İynəcənin də çox üstün görmə sistemi var. Bu həşəratın 30.000 ədəd mikro gözü var. Hər göz ayrı nöqtəni görür. Bu gözlərdən gələn məlumatlar iynəcənin kompyuter kimi əməliyyat aparan beyninə ötürülür.

Bu sistem sayəsində iynəcə mükəmməl görmə qabiliyyətinə malikdir.

## İynəcənin manevr qabiliyyəti

İynəcənin manevr qabiliyyəti isə ən təkmil helikopterdən də üstündür. Məsələn, əks istiqamətdən sürətlə gələn yük maşını ilə toqquşmaqdan son anda etdiyi manevr ilə xilas olur. Hətta daha çətin manevrləri belə bacarır. Tez-tez manevr etməli olan təyyarəçilərin qarşılaşdığı çətinliklərdən biri manevrdən sonra təyyarənin yerə nisbətən vəziyyətinin müəyyən edilməsidir. Əgər təyyarəçi manevrdən sonra hansı tərəfin alt, hansı tərəfin üst olduğunu bir anlıq qarışdırsa, təyyarə düşər.

Texniklər bu təhlükəyə qarşı xüsusi cihaz icad ediblər. “Jiroskop” adlanan bu cihaz pilota süni üfüq xətti göstərir. Pilot bu xətlə həqiqi üfüq xəttini müqayisə edir və təyyarənin vəziyyətini dərhal müəyyənləşdirir.

Texniklərin icad etdiyi bu cihazın bənzərindən iynəcə milyon illərdir istifadə edir. İynəcənin gözlərinin qarşısında süni üfüq xətti çəkilmişdir. Bədəni hansı bucaq altında uçsa da, bu sayədə başını daima üfüq xəttinə paralel saxlayır. İynəcənin bədəni uçma zamanı vəziyyətini dəyişdirdikdə başı və bədəni arasındakı tüklərə impuls göndərilir. Bu tüklərin köklərindəki sinir hüceyrələri uçma əzələlərinə iynəcənin havadakı vəziyyəti haqqında məlumat göndərirlər.

Bu sayədə uçma əzələləri də qanad çalma sürətini və sayını avtomatik tənzimləyirlər. Beləliklə, ən çətin manevrlərdə belə iynəcə uçuş istiqamətini və müvazinətini itirmir. Bu sistem əsl mühəndislik şah əsəridir.

Burada hər ağıllı insan düşünməlidir. İynəcə bədənindəki qeyri-adi sistemlərdən xəbəri olmayan həşəratdır. Görəsən, bu həşəratın orqanizminə ən mahir mühəndislərin nümunə götürdüyü mürəkkəb uçuş sistemlərini kim yerləşdirmişdir?

Qüsursuz qanadları, bu qanadları işlədən motorları, üstün görmə sistemini iynəcəyə kim vermişdir?

Bu mükəmməl dizayn kimin əsəridir?

Canlıları təsadüflərlə açıqlamağa çalışan Darvinin təkamül nəzəriyyəsi bu suallar qarşısında susur.

Çünki iynəcənin orqanizmindəki sistemlərin təkamül yolu ilə, yəni təsadüflərlə və mərhələ-mərhələ əmələ gəlməsi qeyri-mümkündür.

Canlının yaşaması üçün bu sistemlərin hamısı eyni anda və tam olmalıdır. Dünyadakı ilk iynəcənin də eyni mükəmməl mexanizmləri olmalıdır. Bizə təbiət tarixini öyrədən fosil qeydləri də bu faktı təsdiq edir.

## 140 milyon yaşındakı iynəcələr təkamülü təkzib edir

Fosil qeydləri ilk iynəcələrin dövrümüzdəki iynəcələrdən heç bir fərqinin olmadığını göstərir. 140 milyon il əvvələ aid iynəcə fosili ilə canlısı arasında heç bir fərq yoxdur.

Bu həqiqətlər təkamül nəzəriyyəsinin əsassız olduğunu bir daha sübut edir. Habelə, iynəcənin və dünyadakı bütün digər canlıların necə mövcud olduqlarını göstərir. Bütün canlılar aləmlərin Rəbbi olan uca Allah tərəfindən yaradılmışdır və hər canlı Onun varlığının dəlilidir.

Allah’dan başqa heç bir qüvvə bircə milçək belə yaratmağa qadir deyil. Bu həqiqəti Allah Quranda belə bildirmişdir:

**Ey insanlar! Bir məsəl çəkildi, ona qulaq asın! Şübhəsiz ki, Allah’dan qeyri ibadət etdiyiniz bütlər heç bir milçək də yarada bilməzlər – lap hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də aciz, istənilən də! (Həcc surəsi, 73)**

# Axirət günündə hesaba çəkilmədən əvvəl nəfsi hesaba çəkməyin əhəmiyyəti

Yer üzündə yaşayan yeddi milyard insanın hər birinin həyat tərzi, mədəniyyəti, anlayışı, hadisələrə baxışı, xarakteri bir-birindən fərqlidir. Milyardlarla insan həyatını davam etdirərkən onların kiçik bir hissəsi əhəmiyyətli bir həqiqətin fərqinə vararaq yaşayır. Bu həqiqət hər kəsin yaşadığı hər şeyin hesabını bir-bir Allah qatında verəcəyidir...

**• İnsanın gün ərzində özünə tez-tez nəzarət etməsi, etdikləri üzərində düşünməsi niyə əhəmiyyətlidir?**

**• İnsan özünü hansı mövzularla hesaba çəkməlidir?**

Milliyyəti, təhsili, maddi vəziyyəti, mövqeyi nə olursa olsun, hər insan zamanı gələndə Allah`ın hüzuruna çıxacaq və bütün dünya həyatından sorğuya çəkiləcək. Allah Quran ayələri ilə insanları hesab gününün varlığı ilə xəbərdar etmiş və onlara hər bir adamın etdiklərinin həssas tərəzilərlə ölçülərək qarşısına çıxarılacağını bildirmişdir:

*Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. (Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)*

Allah`ın bir çox ayəsində bildirdiyi kimi, insanların hesab verəcəyi bu gün mütləq reallaşacaq. Allah`ın yolundan sapanlara isə hesab gününü unutmalarına görə şiddətli bir əzabın gələcəyi Quranda xəbər verilmişdir. Bu səbəbdən, insanın uca Allah`ın hüzurunda hesaba çəkilmədən əvvəl, hələ dünyada ikən özünü hesaba çəkməsi ölüm anında yaşayacağı peşmanlıqdan xilas olması üçün həyati əhəmiyyət daşıyır.

## Möminlər pis hesabdan qorxduqlarından özlərini tez-tez hesaba çəkərlər

Tarixə baxsaq, bir çox insanın bir gün hesaba çəkiləcəyini unudaraq, bu əhəmiyyətli həqiqətdən qafil bir həyat sürdüklərini görərik. Yalnız az bir qrup insan, yəni möminlər uca Allah`ın gücünü və qüdrətini təqdir edər, bir gün mütləq hesab günü ilə qarşılaşacaqlarını bilərək və pis hesabdan qorxaraq hərəkət edərlər. Möminlərin bu qorxuları Quranda **"O kəslər ki... Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər"** sözləri ilə bildirilir (Rəd surəsi, 21).

İman gətirənlərin Allah`dan qorxmaları və axirətdə verəcəkləri hesabı düşünmələri onları hər vaxt gözəl əxlaqlı davranmağa təşviq edir. Eyni zamanda, Allah`ın razılığını qazanmaq üçün ciddi səy göstərməyə və daim nəfsləri ilə hesablaşmağa da yönəldir.

## Mömin özünü Allah`a qarşı səmimiyyəti ilə hesaba çəkər

İman gətirən bir insan Allah`ın əmr etdiyi ibadətləri yerinə yetirə bilər, əlindən gələni edər, gün boyu bir çox mövzuda ciddi əmək sərf edib, bütün gücünü ortaya qoya bilər. Ancaq uca Allah`a qarşı səmimiyyətində qüsurunun olması, Allah`a qarşı soyuq, uzaq və məsafəli əhvalda yaşaması (Allah`ı tənzih

edirik) onu hesab günündə böyük itkiyə sürükləyə bilər. Çünki bu böyük qüsur insanın həm dünyada, həm də axirətdə heç ümid etmədiyi bir vəziyyətlə qarşılaşmasına səbəb olan böyük bir təhlükədir. Bir möminin dua etmək üçün Allah`a yönəldiyi, Allah`a yalvardığı, tövbə və bağışlanma dilədiyi, Allah`dan nemət istədiyi, kimsənin bilmədiyi sirlərini, ən gizli hisslərini, istəklərini, çətinliklərini, arzularını Allah`a bildirdiyi anlar səmimiyyətin ən yüksək şəkli ilə yaşanacağı anlardır. Bir insanın belə zamanlarda içində soyuqluq, məsafə, səthilik, sünilik olarsa, bu mövzuda özünü ciddi şəkildə hesaba çəkməlidir. Çünki uca Allah Quranda çox çalışdıqları halda, etdiklərinin boşa gedəcəyini xatırladaraq, insanları hesab günü qarşılaşacaqları belə bir təhlükənin varlığı ilə xəbərdar etmişdir:

***O gün (neçə-neçə) üzlər zəlil olub yerə dikiləcək, zəhmət çəkib yorulacaq. (Ğaşiyə surəsi, 2-3)***

***İman gətirənlər isə deyəcəklər: "Sizinlə bərabər olacaqlarına dair Allah`ın adı ilə möhkəm and içənlər bunlardırmı?" Onların əməlləri puça çıxdı, özləri də ziyana uğrayanlardan oldular. (Maidə surəsi, 53)***

## Mömin gün ərzində etdiklərindən özünü hesaba çəkər

Gün ərzində etdiyimiz hər şeydən, düşüncələrimiz, danışıqlarımız, üslubumuz, rəftarımız, hadisələr qarşısında göstərdiyimiz reaksiyalar, qısacası, yaşadıqlarımızın hamısından sorğuya çəkiləcəyik. Allah`ın hüzuruna çıxanda dünya həyatında keçirdiyimiz hər anımızdan məsuliyyət daşıyacağıq.



Düşünən İnsan, Mart 2013



## İmam Rəbbani bu mövzu ilə əlaqədar belə bir xatırlatma etmişdir:

"Allah sirlərinin qüdsiyyətini (qüsurdan uzaq olma) artırsın; məşayihdən (şeyxlərdən) bir camaat, özlərini hesaba çəkmə yolunu seçmişlər. Əməl dəftərlərini hər gecə yatmadan əvvəl mütaliə edərlər. Hətta gündəlik sözlərini, hərəkətlərini, duruşlarını və davranışlarını da nəzərdən keçirərlər. Təfsilatı ilə onların həqiqətini anlamağa çalışarlar. Qüsurları varsa, onları qurtarmağa baxarlar. Seyyiatlarından (pis əməllərindən) da tövbə, istiğfar, iltica (sığınma), tazarru (qüsurlarını bilib qürurdan imtina edib, təvazökarca yalvarıb-yaxararaq) ilə Əziz, Qaffar Allah`a yalvararaq xilas olmaq istəyərlər. Faydalı əməlləri üçün uca Allah`a həmd və şükür edərlər. Etdikləri yaxşı əməlləri də uca Haqqın lütf etdiyi müvəffəqiyyətinə bağlarlar". (Mektubat-i Rabbani, 310-cu məktub)

İmam Rəbbaninin də tövsiyə etdiyi kimi, mömin peşman olacağı hərəkətləri etməmək üçün Allah qatındakı hesabından əvvəl, daim öz nəfsini hesaba çəkər. Ancaq bu şəkildə Allah`ın qatında peşmanlıq duymayacağı bir əxlaqa yiyələnə bilər, hesab günündə asanlıqla hesabını verə biləcəyi bir həyatı yaşaya bilər.

## Mömin Quranı tam mənada həyatına keçirib-keçirmədiyi mövzusunda özünü hesaba çəkməlidir

Allah`a iman gətirən bir insan ilk növbədə onu yaradan Rəbbimizə qarşı məsuliyyətlərinin nə olduğunu öyrənməlidir. Bunu öyrənə biləcəyi qaynaq isə Quran və Peyğəmbərimizin (s.ə.v) sünnəsidir. Allah seçib bəyəndiyi dininin hökmlərini, sərhədlərini Quranda bütün insanlara bildirmişdir. İnsanlar ancaq Allah`ın əmr etdiyi bu hökmləri əskiksiz olaraq tətbiq etməklə qurtula bilərlər. Axirətdə bu sərhədləri böyük şövqlə tətbiq edən, bütün həyatı boyu onu yaradan Allah`ın məmnuniyyətini qazanmağa çalışan bir möminlə, bu sərhədləri görməzlikdən gəlib öz zövqləri uğrunda dünya həyatını sərf etmiş bir adamın görəcəyi qarşılığın eyni olmayacağı aydındır.

Allah Quranda hansı quldan məmnun olacağını ətraflı və açıq şəkildə izah etmişdir. Bu səbəbdən, bir mömin ən böyük məsuliyyətinin Quranın hökmlərini həyatının hər anında yaşamaq olduğunu bilir. Ayələri bir-



bir düşünüb onları həyata keçirmək mövzusunda əskikliyi və ya zəifliyi varsa, özünü hesaba çəkib əskiksiz olaraq Quran əxlaqına yiyələnmək mövzusunda diqqət göstərər. Allah hesab günü insanları Qurana itaət edib-etməmələri mövzusunda sorğuya çəkəcəyini bildirmişdir:

**Odur ki, sən özünə vəhy olunan (ayələrə) sarıl! Əslində, sən düz yoldasan. Doğrusu, bu (Quran) sənin üçün və sənin xalqın üçün bir şərəfdir. Siz (ondan) sorğu-suala tutulacaqsınız". (Zuhruf surəsi, 43-44)**

## Allah insanın özü ilə hesablaşması üçün asanlıq olaraq vicdanı yaratmışdır

İnsan yaşından və yaşadığı mühitdən asılı olmayaraq, etdiyi rəftarın, söylədiyi sözün, ağlından keçirdiyi fikrin doğru və ya səhv olduğunu vicdanı sayəsində rahatlıqla anlaya bilər. Vicdanını dinləyən hər insan səhv istiqamətlərini, etməsi, ya da çəkinməsi lazım olan rəftarları və hətta daha gözəl əxlaqa necə yiyələnməli olduğunu daha yaxşı görə bilər.

Əgər insan əxlaqını və ya rəftarlarını daim nəzərdən keçirərsə, özünü daim sorğu-sual edər və vicdanının göstərdiyi əskiklikləri dərhal düzəldərsə, dünyada və axirətdə Allah`ın razı olacağı insan ola bilər. Amma əgər özünü kafi görərsə, etdiyi səhvləri görməzlikdən gələrsə, bu, onu səhv rəftara sürükləyər və Allah qatında, Allah qorusun, hesabını verə bilməyəcəyi ağır bir yükün altına sala bilər. Sonradan geri dönüşü olmayan böyük bir peşmanlıq duymaqdansa, insanın daim vicdanına nəzarət etməsi və daim daha gözəl, daha mükəmməl olana çatmağa çalışması ağıllı bir davranış olar. Daim öz nəfsi ilə hesablaşan, etdiyi səhvlərə görə bağışlanma diləyən və hər işində uca Allah`a yönələn bir mömin axirətdə asan bir hesab ilə birlikdə cənnət əhlindən olmağı ümid edə bilər. Allah bu mövzu ilə əlaqədar bir ayədə belə buyurur:

**Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. (İsra surəsi, 19)**

Mömin iman gətirdiyi anda həyatının hər anını Allah`ın razılığını qazanma səyi ilə keçirməyə qərar vermişdir. O andan etibarən də, maddi-mənəvi hər istiqamətdə imani bir şövq və səy içindədir. Amma möminin əhəmiyyətli bir xüsusiyyəti də imanını heç vaxt kafi görməməsidir. Çünki insanın həyatının son anına qədər imanını daha da dərinləşdirmə imkanı vardır. Buna görə də, hər gün, hər saat, hər an, bir daha niyyət etməli, imanını təzələməli, hər saniyəsini Allah`ın ən razı olacağı davranışlarla keçirmə qərarı verməlidir. Bu mövzuda tez-tez özünü hesaba çəkməlidir.





# "Ara keçid fosil tapıldı" iddiası saxtakarlıqdır

Darvin dövründə ara keçid fosillərin yoxluğu həll olunacaq problem kimi görünürdü. Darvin yer üzünün təbəqələrində nəzəriyyəsini təsdiqləyəcək heç bir ara keçid fosili tapılmamasını təəccüblə qarşılayır, amma yenə də onların gələcəkdə tapılacağına inanırdı. "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" fəslində mövzu ilə bağlı bunları yazmışdı:

Əgər, həqiqətən, növlər digər növlərdən tədricən törəyibsə, nə üçün saysız-hesabsız ara keçid formaya rast gəlmirik? Nə üçün bütün təbiət qarışıqlıq halında deyil, tamamlanmış və yerli-yerindədir? Saysız-hesabsız ara keçid forması olmalıdır, bəs nə üçün yer üzünün bu qədər çoxsaylı təbəqəsində tapa bilmirik.... Nə üçün hər geoloji forma və hər təbəqə belə formalarla dolu deyil? Geologiya yaxşı dərəcələndirilmiş proses üzə çıxarmır və bəlkə də bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq.

Darvinin ümidini təkzib edən və təqribən 150 ildən bəri tapılmayan ara keçid fosilləri Darvinin nəzəriyyəsinə, həqiqətən də ən böyük etiraz kimi ortaya çıxdı. Çünki müntəzəm olaraq qazıntılar aparılır və darvinistlərin iddiasına əsasən, yer üzünün demək olar ki, hər təbəqəsində milyonlarla, hətta milyardlarla tapılmalı olan ara keçid fosillərindən bir dənəsi belə üzə çıxmırdı. Ara fosilin olmaması darvinizmin ölümü demək idi və batil darvinizm dininin tərəfdarları tərəfindən qəbuledilməz vəziyyət idi. Elə buna görə, darvinistlər ənənəvi üsullarına əl atdılar və fantastik ara fosillər hazırlamağa başladılar. Bu gün darvinist mənbəli nəşrlərə, bu mövzudan bəhs edən orta məktəb və universitet kitablarına baxdıqda ara forma adı altında tanıdılmış bütün canlı fosillərinin, əslində, saxtakarlığın məhsulu olduğunu görürük. Bəzən nəsli kəsilmiş canlılar, bəzən xəyali rəsmlər, bəzən bircə diş fosili, bəzən də laboratoriya mühitində hiylə ilə hazırlanmış kəllə sümüklərindən istifadə edərək uydurulmuş bu saxta dəlillərin hər biri ara fosil olmamasının və darvinizmin yalan olduğunun mühüm sübutudur.

Riyaziyyat professoru V.Smit ara fosil olmaması həqiqətini açıq şəkildə etiraf edən elm adamlarındandır:

"Canlılar çox açıq və təfərrüatlı şəkildə ortaya çıxmışdır, ara fosil yoxdur və "itmiş halqalar" sözün əsl mənasında mövcud olmamışdır".

Kanzas Universitetindən geolog Ronald R. Vestin isə bu mövzudakı şərhi belədir:

Əgər təkamül baş versəydi, fosillər bunları göstərməliydi:

1. Həyata dair dəlillər mövcud olan ən qədim süxurlarda fosilləşmiş ən qədim ilkin canlı formalarına rast gəlinməli,
2. Daha gənc süxurlar daha mürəkkəb canlı formalarının fosillərinin dəlillərini daşımalı,
3. Canlı formalarında ibtidaidən daha mürəkkəbə doğru pilləli keçid olmalı,
4. Həddindən artıq çoxlu sayda ara keçid formalarının fosilləri tapılmalıydı.

Lakin bir çox elm adamının yazdığının əksinə, fosillər Darvinin təkamül nəzəriyyəsini dəstəkləmir.

Darvinistlər indiyə qədər heç bir ara keçid forma nümunəsi göstərə bilməyiblər. Yer üzünün təbəqələrindən heç bir ara fosil çıxarılmamışdır. Təkamül muzeylərində nümayiş etdirilən həqiqi ara fosil nümunəsi yoxdur. İndiyə qədər 350 milyondan çox fosil tapılmışdır, lakin onlardan heç biri ara fosil deyil. Hamısı ya dövrümüzdə yaşayan, ya da nəsli kəsilmiş canlıların tam, mükəmməl fosil nümunələridir.

Ara formanın olmamasını darvinistlər belə inkar edə bilmirlər. Bəzən darvinistlər müxtəlif çətinliklər qarşısında bunu açıq şəkildə bildirmək məcburiyyətində qalırlar. Buna bir misal olaraq təkamülçü paleontoloq Colin Pattersonun bu mövzu ilə bağlı ifadələrini göstərmək olar:

Təkamül xarakterli keçidlərə dair kitabımdakı (Evolution) nümunə çatışmazlığı haqqındakı şərhlərinizə tamamilə şərikəm. Əgər fosil və ya canlı kimi tanıdığım bircə dənə ara forma olsaydı, kitabıma əlavə edərdim... Açıq danışacağam, fosillər arasında bircə dənə ara keçid forma yoxdur.

Ara formanın yoxluğu təkamülün yoxluğu deməkdir. Təkamül nəzəriyyəsinin əsaslı olması üçün bircə fosil kifayət deyil, bir neçə fosil də kifayət etmir. Bu fosillər milyonlarla olmalıdır. Lakin bircə dənə də ara fosil tapılmayıb. Ona görə, təkcə bu həqiqət – yəni 2000-ci ilin əvvəllərində tapılan fosillərin sayı təqribən 100% təşkil edərkən mövcud olmalı ara fosillərdən bircə dənəsinin də tapılmaması – təkamülün yalan olmasının çox güclü və qəti sübutudur.

Oksford Universitetini zoologiya fakültəsindən Mark Ridley fosillərin təkamülə darvinist yalanı üzə çıxarmaqdan başqa heç bir şey qazandırmadığını bu şəkildə açıqlamışdır: İstər mərhələli, istər sıçramalı təkamülü müdafiə etsin, heç bir təkamülçü fosillərdən xüsusi yaradılışın qarşısında təkamülü müdafiə etmək üçün istifadə etməz...

Maraqlıdır ki, darvinistlər bu həqiqətə baxmayaraq, daha sonra nümunələrini görəcəyimiz kimi tam, mükəmməl formadakı fosilləri hələ də ara fosil kimi təqdim etməyə çalışır və ya ara forma fosillərini özləri hazırlayırlar. Saxtakarlığa əl atılmasının səbəbi, şübhəsiz, elmi cəhətdən əsl dəlil gətirə bilməmələridir. Darvinizmi saxtalaşdıran ən mühüm ünsür də bu batil dinin tərəfdarlarının yalana, aldatmağa məcbur olmalarıdır. Bu batil dini müdafiə edənlər "elm adından" hərəkət etdiklərini söyləyirlər, lakin elmin gətirdiyi nəticələr təkamül nəzəriyyəsini açıq şəkildə təkzib edir. Darvinistlərə əsasən, batil darvinizm dininin sağ qalması ancaq saysız-hesabsız yalan yolu ilə baş verə bilər. Buna görədir ki, darvinistlərin bu düsturun bir hissəsi kimi apardıqları "ara fosil tapıldı" təbliğatı da böyük saxtakarlıqdır.









# ŞÜBHƏLƏNMƏYİN SƏBƏBİ İMAN ZƏİFLİYİDİR

Din əxlaqını gərəyi qədər yaşamayan cəmiyyətlərdə insanların bir-birləri ilə rahat danışmaması, sözlərdən fərqli məna çıxarmağa meyilli olması, inciməsi və həmçinin dostların ayrılmasının səbəbi şübhələnməkdir. Bu cür cəmiyyətlərdə münasibətlərə mənfi təsir göstərən şübhələrin kökündə isə iman zəifliyi var.

Şübhə insan ruhuna və fitrətinə tamamilə ziddir. İnsan ruhu hüzura, rahatlığa və şən olmağa uyğun yaradılmışdır. Halbuki, şübhə bütün bunları aradan qaldırır. Mənəvi hüzura təsir edir, rahatlığı pozur, insanın xoşbəxt olmasına mane olur. Şən ikən kefsizlik, sakit ikən gərginlik meydana gətirir. Hətta insanın qapıldığı şübhələr o hadisə və o ölçüdə qalmır. Şübhə başqa bir şübhəni doğurur və yeni vəsvəsə və düşüncələrlə getdikcə böyüyür.

Şübhəli düşüncə tərzi ilə insan daima bəzi şeylərin sübut edilməsini, dəlillərin ortaya qoyulmasını gözləyir. Bu cür yaşamaq insanlara daima bədbəxtlik və sıxıntı gətirir. İnsanlar bir-birilərinə hər şeydə şübhə ilə yanaşdıqlarına görə, yaxşı rəftar belə şübhələnmələrinə səbəb olur. Məsələn, dostları bir şeylə bağlı iltifat etdikdə bundan şübhələnir, bu hərəkətdə mütləq bir məna tapmağa çalışırlar. Birindən gözəl söz eşitdikdə və ya yaxşı rəftar gördükdə bu da şübhələnmələrinə yol açır. Çünki din əxlaqı ilə yaşamayan insanların ümumi əxlaqında şəxsi mənfəətlər ön planda olduğuna görə, səbəbsiz yaxşılıq, iltifat mütləq şübhə üçün zəmin yaradır.



## Cəmiyyətdə şübhənin meydana gətirdiyi mənfi xüsusiyyətlər

### Küsəyənlik

Küsəyən insanlar ortada heç bir səbəb olmasa da, hər şeydən şübhələnməsi səbəbi ilə hər hadisədən, eşitdikləri hər sözdən inciyib küsürlər. Halbuki, deyilən sözlərin onlara heç bir aidiyyəti yoxdur. Bu insanlar deyilən sözləri küsəyən olduqlarına görə, tamamilə başqa mənalarda qavrayırlar. Onlara izah edilən hikməti görmək əvəzinə, heç əlaqəsi olmayan mənalar çıxarıb küsürlər.

Küsəyən insanlar nə üçün küsdüklərini, onları nəyin narahat etdiyini açıq şəkildə demədiklərinə görə, ətrafdakı insanlar onların nə üçün belə davrandığını anlamırlar. Onları anlamaq üçün

müxtəlif yollara əl atırlar, ancaq çox vaxt bu insanların nədən küsdüyünü müəyyən etmək heç mümkün olmur.

Küsəyənliyin kökündə duran səbəblərdən biri bu insanların digərlərinin söz və davranışlarını həmişə öz əleyhlərində qəbul etməsi və onlara güvənməməsidir. Başqa səbəb isə bu insanların özlərinin daxilən narahat və qeyri-səmimi olmalarıdır. Çünki belə insanlar öz vicdansızlıqlarına şahid olduqlarına görə, başqalarının da bunu anlayacağını və hər an üzlərinə vuracaqlarını düşünürlər. Ona görə, hər sözü öz əleyhlərində zənn etməyə başlayırlar. Allah ikiüzlü insanların bu xüsusiyyətini bir ayədə belə bildirir:



**Sən onları gördükdə cüssələri xoşuna gəlir, danışanda sözlərinə qulaq asırsan. Onlar, sanki söykədilmiş dirəklərdir. Onlar hər bir qışqırığın (səs-küyün) öz əleyhlərinə olduğunu zənn edirlər. Onlar düşməndirlər, sən onlardan həzər et! Allah onları öldürsün, necə də haqdan döndərilirlər! (Munafiqun surəsi, 4)**

## Etibarsızlıq

Şübhənin səbəb olduğu davranışlardan biri də inamsızlıqdır. Din əxlaqı ilə yaşamayan insanlar arasında şeytani şübhənin hakim olduğuna görə, bir çox insan ən dostyana, ən mehriban davranışdan belə pis məna çıxarır, şübhə ilə qarşılayır. Nəticədə isə insanlar bir-birləri ilə çox az münasibətdə olur və güvənmirlər.

Etibarın meydana gəlməsi üçün yeganə şərt Allah'a iman gətirən insan olmaqdır. Çünki ancaq Allah'dan qorxan insan Allah'ın razılığını istəyir və öz mənfəətini güdmür. Belə insan Allah'ın haram etdiyi heç nəyi etməyəcəyinə görə etibarlıdır. İman gətirməyən insanlar arasında etibarsızlıq çox yayılmışdır. Bir insan qarşısındakına güvənmədikdə onunla səmimi ola bilməz. Çünki səmimi olduqda hər şeyin öz əleyhində istifadə edilməsindən qorxur. Ona görə, iman gətirməyənlər həyatlarını gizlilik içində yaşayır və özlərini qorumaq üçün daima ayıq-sayıq olurlar. Əlbəttə, belə mühitdə sevgi və etibar olmaz. Bu insanlar hər kəsə şübhə ilə yanaşdıqlarına və nəticədə, heç kimə etibar etmədiklərinə görə, daima öz istək və mənfəətləri üçün yaşamağı üstün tuturlar. Etibarın

Düşünən İnsan, Mart 2013

nədən itdiyini düşünüb həll yolu tapmaq əvəzinə, bu sistem içində heç kimə etibar etmədən yaşayırlar.

Halbuki, müsəlmanların hər davranışı tamamilə Qurana uyğundur. Hər şey Allah'ın rizasına uyğun, gözəl əxlaqla və səmimiyyətlə edildiyinə görə, şübhə doğuran bütün səbəblər aradan qalxır. Çünki ancaq etibarla yaşayan müsəlman rahat və dinc əhval-ruhiyyədə olur.

## Cənab Adnan Oktar cəmiyyətdə şübhələnməyin səbəbinin iman zəifliyi və sevgisizlik olduğundan bəhs edir

ADNAN OKTAR: *Şeytani şübhə hakim olduğuna görə, ən dostyana, ən mehriban davranışı belə bir çox insan pis mənaya yozur. Ona görə, insanlar çox az danışmağa çalışırlar. Mümkün olduğu qədər danışmayıb məsələdən bir təhər yayınıb keçməyə cəhd göstərirlər. Hətta göz-gözə gəlməməyə də diqqət edirlər. Heç cəmiyyətdə göz-gözə baxan birini görübsünüzmü? Çox nadirdir. Əsla göz-gözə gəlməzlər.*

*Çox qısa danışmağa da diqqət edirlər. Bulka alacaqsa: "Neçəyədir? Al pulu, ver"- deyir, bu qədər. Paltar alırsa: "Neçəyədir? Al pulu".*

*Halbuki, Allah bizi bir-birimizi sevməyimiz üçün yaradıb. Bütün kainatı sevməyimiz üçün yaradıb. Heyvanları, bitkiləri sevməyimiz üçün yaradıb. Hər şeydən əvvəl isə Allah Onu sevməyimizi istəyir. İnsanlar çox küsəyəndirlər. Əxlaqsızlıqla eyham vururlar. Qeyri-səmimi və vicdansızdırlar. Ona görə də qorxurlar, hansı sözün dostyana, hansının eyhamlı olduğu bilinmir. Məsələn, biri qəzetdə məqalə yazır, o məqalədə istehza edir. Eyhamlı söz yazır. Məsələn, "çox gözəl" yazır, nida işarəsi qoyur. Adam da küsür: "Görəsən, nə demək istəyir?" - deyir. Müxtəlif mənalar çıxarmağa başlayır. İnsan zəkası çox dərin olduğuna görə, əgər Allah'dan qorxmursa, Allah'ı sevmirsə, şeytanın təsirinə düşür. Şeytanın təsirinə düşdükdə böyük ehtimalla anormal hərəkətlər etməyə başlayır.*

*Bu darvinist-materialist təhsilin nəticəsində olur. İnsanlar sevgi ilə böyüdülsələr, belə olmaz. Hədəfləri sevgi olsa, belə olmaz. Coşqun sevgini hədəf almaq lazımdır. Sevgi bizim fitrətimizdə var. Biz sevmək və sevilmək üçün yaradılmışıq və daima sevgi axtarırıq. (Cənab Adnan Oktarın 18 sentyabr 2012-ci il tarixli A9 TV verilişindən)*



## Şübhədən xilas olmağın yolu Allah'a təslim olmaqdır

Şübhələnmə ruhi problemdir. Ona görə, şübhələrdən xilas olmaq üçün bütün davranışları bir-bir düzəltmək olmaz. Çünki bu təqdirdə insan öyrəndiklərindən fərqli hadisə ilə qarşılaşdıqda yenə şübhələnməyə başlayacaq. Üstəlik, bildiklərini tətbiq edərkən də problem çıxacaq. Çünki bir insanın düşüncə tərzi davranışlarına da əks olunur. Məntiqini anlamadığı, vacib olduğuna inanmadığı bir şeyi həyata keçirməkdə çətinlik çəkir. Halbuki, şübhələrdən xilas olmaq vaxt aparan və çətin bir şey deyil, əksinə, olduqca asandır.

Həll yolu Allah'dan qorxmaq və Quran əxlaqı ilə yaşamaqdır. Allah'a iman gətirən və Quran əxlaqını tam həyata keçirən hər insan bu xarakterdən xilas olar. Allah'dan layiqincə qorxub çəkinməsi, hər an hər yerdə vicdanla hərəkət etməsi onu şübhələrdən tamamilə çəkindirər. Ona görə, əsl müsəlman zehnini tərtəmiz saxlamalı, şeytan ona vəsvəsə verdikdə üzərində bir an belə dayanmadan dərhal uca Allah'a sığınmalı və daima Ona təslim olmalıdır. Möminlərin bu gözəl əxlaqı Quranda belə bildirilmişdir:

**Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allah'a sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. Allah'dan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (Allah'ı) xatırlayıb düşünərlər və dərhal (gerçəyi) görərlər. (Əraf surəsi, 200-201)**

Şübhələrə qarşı insan bütün ömrü boyu diqqətli olmalıdır. Çünki zəif imanlı insanların çoxu din əxlaqından bu şübhələr nəticəsində uzaqlaşır.

İnsanın qəlbinə sıxıntı verən və şübhə adı altında toplanan bütün mənfi hisslər şeytanın təlqini ilə meydana gəlir. Şeytan insanları şübhələrə sürükləyib düşünməkdən, əməlisaleh işlər görməkdən, fədakarlıqdan, dürüstlükdən və təvazökarlıqdan uzaqlaşdırır. Onları din əxlaqından azdırmaq, inkara və üsyana sürükləmək üçün qəlblərinə pis hisslər verir. Uca Allah "Nisa" surəsində şeytanın insanları hidayət yolundan azdırmaq üçün and içdiyini belə bildirir:

**Mən onları mütləq azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allah'ın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allah'ı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır. (Nisa surəsi, 119)**



## Şübhənin zərərləri

Şübhənin insanın mənəviyyatına və orqanizminə heç bir faydası yoxdur. Əksinə, insanın gözəl düşünməsinə mane olur, işinin bərəkətini azaldır. Uca Allah'a yaxınlaşmaq və imanda dərinləşmək üçün düşünəcəyi dəyərli vaxtını alır və boş, lazımsız işlərlə məşğul olmasına səbəb olur. Ağıllı olmasına mane olur, daima vəsvəsəli əhval-ruhiyyəyə salır. İman gətirən insan uca Allah'a təvəkkül edərək, iradə ilə daima Quran əxlaqına uyğun düşünmək üçün diqqətini açıq tutmalı, şübhədən uzaq durmalı, müsəlman üçün hər şeyin xeyirlə yaradıldığını dərk etməlidir. Şeytanın verdiyi vəsvəsə və şübhələrə baxmayaraq, möminlər Allah'ın göstərdiyi yola tabe olduqda, Allah'ın izni ilə, şeytan onlara təsir etməz. Bu mühüm həqiqət Quranda belə bildirilmişdir:

**Şübhəsiz ki, şeytanın iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Şeytanın hökmü yalnız ona itaət edib Allah'a şərik qoşanlar üzərindədir! (Nəhl surəsi, 99-100)**



## KENQURU BALALARINA XÜSUSİ QAYĞI



Yeni doğulmuş kenquru balası lobya dənəsi boyda olur, ayaqları hələ yeni inkişaf etməyə başlayır. Kenquru balaları doğulduqda kor olurlar. Çünki kenquru balaları ana bətnində inkişaflarını tamamlamadan dünyaya gəlirlər. Buna görə, balalar üçün analarının bədənində hazırlanmış tüklü kisə çox mühüm qorunma yeridir. Bu kisə bala böyüdükcə genişlənir. Kisənin girişində balanın düşməsinin qarşısını alan xüsusi əzələlər var. Bu əzələlər ana kenquru suya girdikdə də suyun içəriyə dolmasının qarşısını alır.(Creation, vol.20, n.3, June-August 1998, səh. 29)

Kenquruların südü də balalarının tam tələbatına uyğun xüsusiyyətdədir. Südün tərkibindəki yağ və digər birləşmələr balanın böyüməsinə və ehtiyaclarına uyğun olaraq dəyişilir.

Şübhəsiz ki, kenqurunu bu xüsusiyyətlərlə yaradan Rəhman olan Allah'dır. Allah'ın yaratdığı bir canlının bir neçə xüsusiyyəti belə Onun sonsuz elmini göstərən və hər ağıllı insanın iman gətirməsinə vəsilə olan yaradılış dəlillərindən biridir.





# Beyinin insan davranışlarını istiqamətləndirən hissəsi: BEYİNİN ÖN PAYI

• Bir insan hərəkətlərini istiqamətləndirən qərarlar verərkən, bunu bir robot kimi məntiq qaydalarına əsasən etməz. Vicdanını dinləyər, hisslərini də buna əlavə edər. Elmi araşdırmalar beyinin ön payında mövcud olan “ventromedial prefrontal korteks” adlı hissənin bu qərarları verməsində əsas rol oynadığını müəyyənləşdirmişdir.

• Bəs beyinin bu hissəsinin olmaması insanı hansı mənfi davranışlara sürükləyə bilər?
• Uca Allah Quran ayələrində beyinin bu hissəsi ilə əlaqədar nələrə diqqət çəkmişdir?

Özünü idarə etmə, nəticə çıxarma, incə düşüncəli və nəzakətli olma, qətiyyət kimi Quranda təriflənən bir çox müsbət davranışlara beynimizin ön payı nəzarət edir. Normal insanın beyninin ön payında yüksək bir hərəkətlilik olduğu məlumdur. Bu hərəkətlilik insanın hisslərinin fərqinə varmasını təmin edir. Sevgi, xoşbəxtlik, qorxu, peşmançılıq, günahkarlıq kimi romantik reflekslərin olması beyindəki ön payın yaxşı işlədiyini göstərir. Beyinin ön payının işləmə mexanizmi araşdıran elm adamları heyrətamiz nəticələrlə qarşılaşmışlar.

## Beyinin ön payını işlədən möcüzə

İnsan beynini digər canlılardan fərqləndirən diqqətəçarpan xüsusiyyət onun ön pay ölçüsünün digər canlılardan 40% daha böyük olmasıdır. Elm adamları beyinin bu hissəsinin əzbərlənmiş, avtomata bağlanmış əməliyyatlar əsnasında fəaliyyətdə olmadığını beyinə bağlanan elektrodlarla və müxtəlif rentgen cihazları ilə aparılan ölçmələr sayəsində kəşf etmişlər. Ancaq yeni bir məlumat alındığı və işləndiyi zaman ön pay hərəkətə keçir.



Üstəlik, yeni öyrənilən məlumat insanı xoşbəxt edirsə, ön pay parıldamağa başlayır.

Yeni şeylər öyrəndiyimiz zaman beyinin ön payı yeni məlumatı öyrənmək üçün sürətli şəkildə işləyir. 1.3 kq ağırlığındakı bu ət parçasının hər zamankı vərdişlərindən fərqli bir məlumat olduğunu anlaması bir möcüzədir. Ancaq bundan daha möcüzəvi olan isə beyinin yeni məlumatı istifadə etmək üçün yeni dövrələrini, yəni ön payı bizim istəyimizdən asılı olmayaraq istifadəyə açmasıdır. Ön payın qeyd etdiyi yeni məlumatlar davranış modellərimizi dəyişdirərək ətrafımızı fərqli şəkildə qəbul etməyimizə gətirib çıxarır.

Bu dövrü, yəni yeni məlumatın fərqli nəticələr meydana gətirməsini biz izləmərik. Bu mexanizm möcüzəvi şəkildə avtomatik olaraq reallaşır. Məhz bu zaman əhəmiyyətli bir gerçək ortaya çıxır: Quranda uca Allah beyinin bu qisminə diqqət çəkir. Beyinin ön payının olduğu hissə burunun üstündə başın ön qismində, yəni alnımızdadır. Uca Allah "… Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın …" (Hud surəsi, 56) ayəsi ilə bizə bu gerçəyi bildirir və beyinin ön payının işinə nəzarət edənin uca Allah olduğunu xəbər verir. Müasir elmin yerini və funksiyasını hələ yeni öyrəndiyi bu gerçəyin 1400 il əvvəl endirilmiş Quranda olması isə böyük bir möcüzədir.

## Beyinin ön payı insan davranışlarını necə istiqamətləndirir?

ABŞ-ın Pensilvaniya Universiteti Tibb Mərkəzinin mütəxəssisi prof. dr. Andryu Nyuberq namaz qılan və dua edən bir qrup müsəlman üzərində araşdırma aparmışdır (Religion And The Brain; Newsweek, 7 Mayıs 2001 s: 50). Araşdırmaya görə, huşu içində edilən duanın və Allah`ı düşünmənin beyinin ön payına 80 dəfə daha çox qan vurduğunu, bu səbəblə, namaz qılan insanlarda yaddaş və şəxsiyyət pozuntularına çox az rast gəlindiyini, hətta bu insanların daha uzun ömürlü olduğunu və yaddaş itkisinə uğramadıqlarını ortaya qoymuşdur. Bəs bu, necə reallaşır?

Beyinin ön hissəsində qərar vermə mexanizminin olduğu ön pay adlanan hissədə dua və namaz əsnasında qan miqdarı diqqətəçarpan şəkildə artır və beyinin ön payına daha çox miqdarda qlükoza daşınır. Bu da hüceyrələrin daha sürətli qidalanması, beyinin daha aktiv işləməsi mənasını verir. Beyinin ön payının daha sürətli işləməsi isə insanın hisslərinin fərqinə varması və qərar vermə, şəxsiyyət, problem həll etmə, səhvləri təkrar etməmə, sevgi kimi insani hisslərin ön plana çıxmasını təmin edir.

Günümüzdəki elmi tərəqqinin də sübut etdiyi kimi, beyinin ön payının daha təsirli işinə vəsilə olan namaz ibadətinin əhəmiyyəti bir daha aydın olmuşdur. Necə ki, uca Rəbbimiz bir Quran ayəsində belə buyurur:

**"Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allah`ı yada salmaq isə (ibadətlərin) ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir". (Ənkəbut surəsi, 45)**

Beləliklə, Qurandakı bu hökm bir daha reallaşmış və namazın insanı hər cür pislikdən qoruduğu elmi olaraq da sübut edilmişdir.

## Beyinin ön payının fərqli şəkildə işləməsi nələrə gətirib çıxarar?

Aparılan araşdırmalar ön payda pozuntu olduğu və ya fəaliyyətin olmadığı



vəziyyətində insanlarda anormal davranışların meydana gəldiyini müəyyən etmişdir. Çünki beyinin ön payındakı hərəkət azlığından peşmanlıq, günahkarlıq, qorxu kimi hisslər yaranmır və ön payın fərqli işləməsi insanları şiddətə yönəldir. Belə ki, mərhəmətsiz şəkildə cinayət törədən qatillər, terroristlər və diktatorlar kimi şəxslərin beyinlərinin ön payının normal insanlarınkından fərqli işlədiyi PET (Positron Emission Tomography) kimi göstərmə texnikaları ilə təyin olunmuşdur. PET beyinin yanacağı sayılan qlükozanın beyinin müxtəlif hissələri tərəfindən nə qədər istehlak edildiyini ölçür. Məlumatlara görə, təcavüzkar və mərhəmətsiz insanların prefrontal kortekslərindəki qlükozanın səviyyəsi normal insanlarınkından daha azdır. Bu isə beyinin ön payında bir hərəkətsizlik meydana gətirir və normal işləməsinə mane olur. Uca Allah`ın insanlara təqdim etdiyi mükəmməl nemət olan beyinin ön payı normal işləməyəndə bir-birindən fərqli şəxsiyyət pozuntuları yaranır. Bu şəxsiyyət pozuntularından bəziləri bunlardır:



Cinayətə meyil: Amerikalı elm adamı Adrian Rainenin dediyinə görə, beyinin ön payının zərər görməsi və ya normal işləməməsi insanın düşüncəsiz hərəkət etməsinə, özünü idarəetmə qabiliyyətinin itməsinə, uşaq hərəkətləri etməsinə, zaman anlayışının zəifləməsinə, qərar vermə bacarığının itməsinə gətirib çıxarır. Təcavüzkar və mərhəmətsiz insanların beyinlərinin müxtəlif xəbərdaredənlərə verdiyi reaksiyalar araşdırılmış və belə insanların beyinlərinin ölüm, əzab kimi sözlərə, şiddət ehtiva edən qan dolu şəkillərə reaksiya vermədiyi ortaya çıxmışdır.

Sevgisizlik: Araşdırmalar göstərmişdir ki, şəxsiyyət pozuntusu göstərənlərə sevgi sözləri ilə müraciət edəndə, onlar: "Bir fincan qəhvə verərsənmi?" - deyə cavab verə bilərlər. Bir sıra ardıcıl qətllər törədən qatil üzərində aparılan beyin araşdırmalarına görə, belə nəticə əldə edilmişdir: bu şəxslər ən yaxınlarının şəkilləri onlara göstərildiyi zaman ən kiçik hiss əlaməti belə göstərmirlər.

Anti-sosial şəxsiyyət pozuntusu: Bu şəxslərin fərdi və ictimai əlaqələrdə də müvəffəqiyyətsiz olduqları müxtəlif nümunələrlə müəyyən olunmuşdur. Bu müvəffəqiyyətsizliyə yaddaş problemləri, özlərini idarə edə bilməmələri, tənbəllik, ilhamsızlıq, keylik, təşəbbüs əskikliyi, gələcəklə əlaqədar proyekt yoxluğu, yeni şeylər öyrənməmə və diqqət dağınıqlığının səbəb olduğu bildirilmişdir.

## Bir Quran möcüzəsi: beynimizdə hərəkətlərimizi istiqamətləndirən bölgə

Uca Allah alın bölgəsində olan və normal işləməyəndə təcavüzkar bir şəxsiyyətin ortaya çıxmasına səbəb olan beyinin ön hissəsinə Quranda diqqət çəkməkdə və bu hissənin normal işləməməsi vəziyyətində insanı günaha sürükləyəcəyinə belə işarə edir:





**"Xeyr! Əgər son qoymasa, (Biz onun) kəkilindən tutacağıq – özü də yalançı, günahkar kəkilindən!" (Ələq surəsi, 15-16)**

Yuxarıdakı ayələrdə keçən "yalançı, günahkar kəkil" ifadəsi son dərəcə diqqətçəkicidir. 1400 il əvvəl Quranda diqqət çəkilən bu bölgə və onun vəzifəsi haqqındakı məlumatlara müasir elm adamları ancaq son 60 il içində şərh gətirə bilmişlər. Kəllənin içinə, başın ön qisminə baxanda beyinin ön alın bölgəsi görünəcək. Bu bölgənin funksiyaları haqqında fiziologiya sahəsində aparılan araşdırmalar nəticəsində əldə edilən məlumatlar "Anatomiya və fiziologiyanın əsasları" ("Essentials of Anatomy and Physiology") adlı kitabda bu şəkildə yazılır:

"Hərəkətlərin motivi, planlama və başladılması alın paylarının ön qismi olan ön alın bölgəsində (cerebrum) reallaşır. Bura birlik korteksinin bir bölgəsidir..." (Rod R. Seeley, Trent D. Stephens, Philip Tate, Essentials of Anatomy & Physiology, 2-ci nəşr, Mosby-Year Book İnc., St. Louis, 1996, s. 211; Charles R. Noback, N. L. Strominger, R. J. Demarest, The Human Nervous System, İntroduction and Review, 4-cü nəşr, Lea & Febiger, Philadelphia, 1991, s. 410-411)

## Kitabda bu bölgə ilə əlaqədar bu sətirlər yer tutur:

"Hərəkətlə olan əlaqəsi ilə birlikdə, ön alın bölgəsinin, eyni zamanda, təcavüzkarlığın da funksional mərkəzi olduğu düşünülür..." (a. g. e.)

Bu şərhlərdən aydın olur ki, beyinin ön alın bölgəsi planlama, motiv, yaxşı və ya pis hərəkətlərin başladılması, yalan və ya doğrunun deyilməsi ilə əlaqədar fəaliyyətləri icra edir.

Göründüyü kimi, bunlar "Ələq" surəsində keçən "yalançı günahkar kəkil" ifadəsi ilə böyük paralellik təşkil edir. Elm adamlarının son 60 il içində kəşf etdikləri bu kimi elmi gerçəkləri Allah Quran ayələrində əsrlər əvvəl insanlara xəbər vermişdir.

# Fosillər Təkamülü Təkzib Edir





## ÇİNAR YARPAĞI

*Dövr: Eosen*
*Yaşı: 54-37 milyon il*
*Bölgə: Qrin River, Kolorado, ABŞ*

*Təqribən 50-100 milyon il əvvələ aid yarpaq, həşərat və balıq fosilləri darvinizmə meydan oxuyur. Təkamül nəzəriyyəsinə əsasən, fantastik təkamül prosesi keçirmiş və ara forma xüsusiyyətində olan bu canlılar, əslində, dövrümüzdəki həmnövləri ilə tamamilə eynidir. Bu fakt canlıların tarixin heç bir dövründə təkamül keçirmədiyinin qəti dəlilidir.*





## ÇAQQAL KƏLLƏ SÜMÜYÜ

*Dövr: Eosen*
*Yaşı: 51 milyon il*
*Bölgə: Qao Xionq, Tayvan*

*Bu günə qədər canlı növlərinin ortaq əcdadını göstərən heç bir fosil tapılmamışdır. Canlıların dəyişiklik keçirdiyinə dair fosil qeydlərində heç bir iz yoxdur. Bəs nə üçün darvinistlər nəzəriyyələrində bu qədər israr edirlər? Görəsən, nə üçün canlıları Allah'ın yaratdığına dair bu qədər dəlil var ikən onlar canlıların təkamül keçirdiyini iddia edirlər? Bunun səbəbi ideolojidir. Təkamül nəzəriyyəsini müdafiə etmək materialist və ateist ideologiyalar üçün həyati əhəmiyyət daşıyır.*

*Darvinistlər təkamül nəzəriyyəsini israrla müdafiə etsələr də, fosillər daima yeni dəlillərlə təkamülü təkzib etməkdə davam edir. Şəkildəki 51 milyon illik çaqqal kəlləsi bu faktlardan biridir. Yan tərəfdəki çaqqal kəlləsi fosilində dişlər açıq-aydın görünür və çaqqalların dövrümüzə qədər heç dəyişmədiyini bizə göstərir. Şəkildəki fosil eynilə pələnglərin, tısbağaların, tülkülərin, vaşaqların, şirlərin, kərgədanların və digər bütün canlılar kimi çaqqalların da heç bir dəyişiklik keçirmədiyini sübut edir.*

*Elmi kəşflər, fosillər canlıların təkamüllə deyil, bir anda üzə çıxdığını, yəni yaradıldığını göstərir. Fosilləri tədqiq edən hər ağıllı insan bütün canlıların yaradıldığı kimi dəyişmədən qaldığını görəcəkdir. Canlıların heç birinin tarixində təkamülə aid izlər yoxdur. Bütün varlıqların yaradanı, yeganə hakimi uca Rəbbimiz Allah'dır.*









## AKASİYA AĞACI ÇİÇƏYİ

*Dövr: Oliqosen*
*Yaşı: 25 milyon il*
*Bölgə: Dominikan Respublikası*

*Bitkilərin hər birinin öz növünə aid xüsusiyyətləri var. Rəngləri, dadları, quruluşları, çoxalma formaları bir-birindən fərqlənir. Yarpaqlar dünyanın hər yerində fotosintez etmək üçün mexanizmlərə malikdir. Bənzərsiz daşıma sistemləri dünyanın hər yerindəki bitkilərdə var. Bu kompleks, reduksiya edilməz mexanizmlərin təkamülçülərin iddia etdiyi kimi təsadüfən əmələ gəlməsi qeyri-mümkündür.*

*Bütün bunlar bizə bir nəticəni göstərir: bütün canlılar kimi, bitkilər də yaradılmışdır və ilk dəfə mövcud olduqları andan etibarən bütün mexanizmləri tam şəkildədir.*







www.imanedenalimler.com

## *Blez Paskal (1623-1662)*

Qədim yunan alimlərindən sonra həndəsədə xeyli irəliləyiş əldə etmiş görkəmli təbiətşünas alim Blez Paskal artıq çox gənc yaşlarında bir çox kəşflərin müəllifi idi. Onun digər fəaliyyəti də uğurlu idi. Blez Paskal riyaziyyat sahəsində çoxsaylı işləri ilə yanaşı, fizikada da az iş görmədi. Məsələn, o, atmosferi tədqiq edərək və mayelərin mexanikası ilə məşğul olaraq atmosferdəki təzyiqin hündürlüyün artmasına mütənasib olaraq dəyişdiyini kəşf etdi. Elm tarixində vacib yer tutan Blez Paskal dindar insan idi. Blez Paskalın “Allah hər şeyin yaradıcısıdır: riyaziyyatdan tutmuş elementlərin qaydasına qədər” sözlərində onun Allah`ın sonsuz qüdrəti qarşısındakı heyrəti ifadə olunmuşdur.